Bu bir xalq qəzetidi
ƏDALƏT

# 7 qanun layihəsi müzakirə olunacaq

Bax:səh-2

# DİN Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə əlavə kursant qəbulu elan edilir



**Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə əlavə kursant qəbulu elan edilir. Bu barədə Dövlət İmtahan Mərkəzi məlumat yayıb.**

Bildirilib ki, müsabiqədə Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olmaq üçün mandatdan keçib III ixtisas qrupu üzrə imtahan verən, lakin test imtahanının nəticəsinə əsasən, müsabiqədən keçməyən 200 və daha yuxarı bal toplayan abituriyentlər iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən abituriyentlər 9-11 sentyabr 2020-ci il tarixlərində Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Baş İdarəsinə müraciət etməlidirlər.

# ELNUR ELTÜRKÜ İŞDƏN ÇIXARTDILAR





**Möhtərəm Prezidentin ölkədə apardığı islahatlardan biri də gəncləşmə siyasətidi.**

Azərbaycan Milli Elmlər Akademiyasında isə qocalaşma siyasəti gedir. Tanınmış tədqiqatçı alim, ürəyi yalnız yaratmaq eşqiylə yanan, özünün yazdığı kimi, həyatı mərd və dürüst yaşamaq xarakteri ilə bağlı olan AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru Elnur Eltürkü 83 yaşlı Ramiz Mehdiyev işdən çıxartdı. Yəqin ki yerinə özü kimi, müşavirləri və köməkçiləri kimi bir pensiyaçı tapıb qoyar.

Görünür, Elnur Eltürk Ramiz Mehdiyevi tənqid edənlərə cavab verməyib.

İnanırıq ki, belə bir istedadlı gənc alim işsiz qalmayacaq.

Onu da qeyd edək ki, bu günlərdə separatçı Qarabağ rejimini Dağlıq Qarabağ Respublikası kimi təqdim edən Türkiyənin "Milliyyət" qəzetini ifşa eləmiş və tələb etmişdi ki, qəzet üzr istəsin.

**Görəsən, "Milliyyət" qəzetinin də bu işdə barmağı varmı?**

# Bakı, Sumqayıt və Abşeronda bağçalar oktyabrın 1-dən açılır

**Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına uyğun olaraq 1 oktyabr 2020-ci il tarixindən Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu üzrə, 15 sentyabr 2020-ci il tarixindən isə yerdə qalan rayon və şəhərlərdə fəaliyyət göstərən dövlət və özəl uşaq bağçalarının fəaliyyətinə icazə verilib.**

Adalet.az-ın məlumatına görə, bu barədə Nazirlər Kabinetinin 330 №li Qərarı bu gün imzalanıb və rəsmi sayta yerləşdirilib.

Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda bağçaların bir qədər gec, 1 oktyabr 2020-ci il tarixindən açılmasının səbəbi əhalinin sayı və sıxlığının daha yüksək olmasıdır.

Bu, həm də bağçalarda müvafiq hazırlıq işlərinin görülməsi, dezinfeksiya işlərinin aparılması üçün daha uzun müddətin tələb olunması ilə əlaqəlidir.

Eyni zamanda, bu müddətdə bağça tərbiyəçiləri və texniki işçilər bağçaların yeni qaydalarla açılması və idarə edilməsinə dair təlimatlandırılacaq, oyun, yataq və digər otaqlar xüsusi qaydalarla təşkil olunacaqdır.

Uşaq bağçalarının açılması zamanı müvafiq sanitar-gigiyenik qaydaların təmin edilməsi vacib şərtdir.

# Naxçıvanda səhiyyə işçiləri üçün əmək yarmarkası keçiriləcək



**Naxçıvan Muxtar Respublikasında səhiyyə işçiləri üçün əmək yarmarkası keçiriləcək.**

Adalet.az xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi məlumat yayıb. Qeyd olunub ki, əmək yarmarkası vakant həkim və orta tibb işçisi yerləri üzrə təşkil olunacaq. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən yarmarka sentyabrın 17-si saat 10:00-da Səhiyyə Nazirliyinin inzibati binasında baş tutacaq

Qeyd edək ki, yarmarkada iş axtaran ali və orta tibb təhsilli məzunların iştirakı məqsədəuyğundur.

# Vilyam Hacıyev Prezidentə müraciət etdi

Bax:səh-2

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**DÜNYANI DALI ÜSTƏ QOYAN PANDEMİYA BİRCƏ AZƏRBAYCAN QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNƏ DÜŞDÜ.**

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 124 (5784) 10 sentyabr 2020-ci il | Qiyməti 30 qəpik

# GÖRƏK TOFİQ YAQUBLUYA NƏ QƏDƏR TƏZMİNAT ÖDƏYƏCƏKLƏR?





*REAL-ın sədri İlqar Məmmədova hökumətimiz 235 min manat təzminat ödədi. Əslində təzminatı hökumət yox, İlqar Məmmədovun cinayət işini aparan müstəntiq, iddiaçı prokuror və ona hökm oxuyan hakim ödəməli idi. Həm saxta cinayət işi apardıqlarına görə və sonda da ölkəmizin imicinə zərbə vurduqlarına görə.*

*İndi görək hökumətimiz gələcəkdə Tofiq Yaqubluya nə qədər təzminat ödəməli olacaq?*

# Şəhid və əlil ailələrinə evlər verildi



Bax:səh-3



**Səhiyyə nazirinin maaşını hələ də hörmətli Oqtay Şirəliyev alır.**

**Mədəniyyət nazirinin maaşını isə hələ ki heç kim almır.**

# BŞBPİ: Bakıda razılaşdırılmamış küçə yürüşünə cəhd edilib



**Sentyabrın 9-da saat 15 radələrində 20-25 nəfər "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozaraq, Səbail rayonundakı İstiqlaliyyət küçəsində şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmadan toplaşıb küçə yürüşü keçirməyə cəhd etmişdir.**

Bakı Şəhər Baş Polis İdarəsindən (BŞBPİ) Adalet.az-a bildirilib ki, ərazidə xidmətdə olan polis əməkdaşları tərəfindən qanunsuz küçə yürüşünə cəhdin qarşısı alınmış, iştirakçılar ərazidən uzaqlaşdırılmışlar.

Saxlanılan və ya həbs edilən olmamışdır.

# NƏ OLDU, DÜNƏN MEDVEDEVİ SÖYÜRDÜZ?



**Dünyada futbol qədər sevilən ikinci bir idman növü yoxdur. Və dünyada futbol qədər də əclaf bir idman növü yoxdur. Dünən çiynində gəzdirdiklərini bu gün ayaqlarının altına salıb tapdaya bilərlər. Bu gün ayaqlarının altına salıb tapdaladıqlarını isə sabah**

Lüksemburqa uduzmağı yıxdılar Mahir Əmiralı və Maksim Medvedevin üstünə, tapdaladılar. Məşhur anekdotda olduğu kimi, heç oğrunun günahı yoxuymuş. Bilənlər bilməyənlərə öyrətsin.

Və millimiz getdi Kiprə və qələbə ilə qayıtdı. Həm də bu qələbə ilə müəyyən məsələlərdə Kipr Yunan Cümhuriyyətindən Türkiyənin də hayıfını aldı.

Qələbə topunu da sizin dünən söydüyünüz Maksim Medvedev vurdu.

Aqil ABBAS

# BEKARÇILIQDAN İNDİ DƏ RAYONLARI LƏĞV EDİRİK

**Hərə də bir təklif verir. Mənasız təkliflər haqqında ötən günlərdə bir köşə yazmışdım.**

**Gəncənin millət vəkilləri təklif irəli sürüblər ki, Gəncənin Kəpəz və Nizami rayonları ləğv edilsin. Guya bu sərfəli olacaq.**

**Hörmətli Vahid müəllim Əhmədov da təklif edib ki, Quba, Qusar, Xaçmaz, Siyəzən və Şabran rayonları (bilmirəm Xızını əlavə edib, yoxsa yox) birləşdirilsin. Həm də onu da təklif edib ki, digər bölgələrdəki rayonlar da birləşdirilərək 11 rayon yaradılsın.**

(Ardı 3-cü səhifədə)

# Əzizə İsmayılovadan maraqlı status



***Şəkildəki rəngarəngliyə baxıram, deyirəm, necə gözəl həyatımız olub, ilahi.***

***Builki birincilər bütün bu gözəllikdən məhrum olacaqlar, görəsən? Fikrim qalıb məktəblilərdə. Necə olacaq bu il ilk dəfə məktəbə gedəcək 165 511 körpələrin hali?***

Aqil ABBAS
aqilabbas@rambler.ru

# RƏŞİD PAŞA ÖZÜNÜ NİYƏ GÜLLƏLƏDİ?



**70-ci illərdə tələbə yoldaşım, türkoloq Ramiz Əsgər mənə bir kitab bağışlamışdı: Doğan Avçıoğlunun "Milli qurtuluş tariximiz".**

**Çox qəribəydi ki, kitab 70-ci illərdən əvvəl çıxmağına baxmayaraq, 95-ci ilə qədər Türkiyədə baş verə biləcək hadisələri də əhatə edirdi. Və onların 80 faizi də düz çıxdı. Kitab 21 cilddən ibarətdi. Ramiz mənə 4 cildini - 1,2,3 və 4-cü cildini bağışlamışdı. Həmin kitablar bütün kitabxanamla birlikdə Ağdamda yandı. Türkiyəyə yollar açılandan sonra Doğan Avçıoğlunun bu 21 cildlik əsərini nə qədər axtardım və indi də axtarıram tapa bilmədim və tapa bilmirəm. Deyirlər ki, o, çox əski kitabdır, satışdan tapa bilməzsiz, kimlərinsə kitabxanasında ola bilər. Qardaşlarım professor Seyfəddin Altaylı ilə Yaqub Öməroğlu da bu işdə mənə kömək edə bilmədilər.**

**Nə isə... Gələk mətləbə.**

(Ardı 2-ci səhifədə)

# Oxucuların nəzərinə!

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

# Siqaret qadağası yenidən müzakirə olunacaq

**Bu ilin noyabr ayında "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunun icrası ilə bağlı dinləmə keçirilməsi nəzərdə tutulur.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında komitə sədri Musa Quliyev deyib.

Onun sözlərinə görə, qanun qəbul olunsa da, tütün məmulatlarından istifadənin qadağan olunduğu yerlərdə siqaret çəkilir.

M.Quliyev əlavə edib ki, bu sahədə maarifləndirmə işlərinin gücləndirilməsi vacibdir.

Bundan əlavə, komitə sədri qeyd edib ki, sosial sığorta və məşğulluqla bağlı da dinləmələrin keçirilməsi planlaşdırılır.

# Cavid İsmayıl: Novruzəli bizə baxanda akademik sayılacaq



**Bir nəfərin WhatsApp-da səs yazısı yayılıb. Qaqaş deyir ki, "Coca-Cola-nın işçisi SPİD-ə yoluxub. Qolundan qanı çəkib, axıdıb baçoka. İndi bütün mağazalardan Cola-Fantaları yığırlar".**

Ümumiyyətlə, son vaxtlar WhatsApp-da bu tipli səs yazıları çox yayılır. Youtube, Facebook bu yayılma sürətinə həsəd apara bilər. Səbəb təkcə WhatsApp-ın daha əlçatan və asan olması deyil, həm də savadsız kütləyə təsir imkanlarının böyük olmasıdır. Bir məqamı da etiraf etməliyik - XXI əsrdə yaşayıb zahirən müasir həyat tərzi sürsək də, müasir dəblə geyinsək də, Cavanşir körpüsündən 20 nömrəli məktəbin yanına qədər gözoxşayan müasir paytaxtımız olsa da, xalq olaraq Mirzə Cəlilin Danabaş kəndinin sakinləri, Novruzəlisi olaraq qalmışıq. Test sistemini ləğv etsələr, Novruzəli bizə baxanda akademik sayılacaq. Demokratiya, demokratik cəmiyyət doğrudan da gediləsi uzun bir yoldur. Bu yolu oxumadan getsən, nə qədər məsafə qət etməyinin mənası olmayacaq - onsuz da cəhalət bataqlığından çıxa bilməyəcəksən...

# GÜNÜN LƏTİFƏSİ

Əbülfət Mədətoğlu gedir Vəli Xramçaylıgilə. İçəri girəndə görür ki, şair uğunub gedir. Soruşur ki, ə, şair, nəyə gülürsən?

**- Eyvanda çay içirdim, polislər girdi içəri ki, bəs sən narkotik qəbul edirsən. Heç demə qonşum yalandan xəbərçilik edibmiş. Mən də polislərə dedim ki, hə, oldu bu iş, amma hamısını qəbul edib qurtardım. İnanmırsız axtarın. Axtardılar bir şey tapmadılar.**

**- Yox ey, bəs nəyə gülürsən?**

**- Polislər soruşdu ki, hardan almışam, mən də dedim qonşudan. İndi tökülüblər qonşunun evinə didik-didik edirlər. Bu dəqiqə də parketləri sökürlər.**



*Yılmaz Özdil*

# Atatürkün "Lətifə"si...

9 sentyabr...

İzmirin dağlarında çiçəklər açırdı.

Bugünkü Kültürpark ərazisində yerləşən erməni məhəlləsində yanğın başladı.

İzmirə bu son pisliyi edənlər imbatın (havalandırma sistemi) təsiri ilə türk məhəlləsinə də yayılacağını təxmin edirdilər.

Külək təxminləri tərsinə çevirdi.

O dövrdə Punta adlanan Levantin məhəlləsi Alsancakı yox eləyib Kordona çatdı.

***

Salih Bozok o ərəfədə kiçik bir süvari birliyi ilə Güzelyalını gəzirdi. Baş Komandanlıq qərargahı olaraq istifadə üçün yanğından uzaq bir bina axtarırdı.

Göztepedəki köşkü tapdı.

***

Lətifənin ürəyi az qala yerindən çıxacaqdı.

Atatürkün xəyalı ilə İzmirə gəlmişdi.

Atatürk isə şəxsən özü onun yanına gəlirdi.

***

Lətifə İzmirdə doğulmuşdu.

ABŞ və İngiltərinin tütün və pambıq bazarlarında söz sahibi olan, şəhərin ən zəngin taciri Muammer bəyin qızı idi.

İbtidai təhsilini evə gətirilən ingilis və alman müəllimlərlə bitirmiş, sonra İstanbulda Arnavutköy Amerikan Kollecində oxumuşdu. İngiltərədə Tudor Hall Schoolda dilini inkişaf etdirmişdi.

Halide Edip Adıvarın tələbəsi idi, Tevfik Fikretdən, Halit Ziya Uşakgildən dərs almışdı.

İngilis dilini ana dili səviyyəsində, almanca, fransızca, farsca ondan da yaxşı danışa bilirdi. O, həmçinin yunanca və italyanca da bilirdi.

Pianoda ifa edə bilirdi.

Atın yəhərinə süvari kimi otururdu, mükəmməl at çapırdı.

Sorbonne Universitetində siyasət və hüquq üzrə oxuyurdu.

***

Məmləkət işğal olunan kimi ailəliklə Fransaya köçmüşdülər.

Atlantik Okeanının sahilində sahil cənnəti Biarritzdə yaşayırdılar.

Təhlükədən uzaq idi, amma Vətən torpaqları çeynənən zaman qürbətdə olmaq bu azad qızın ürəyinə əzab verirdi.

"Burada bundan artıq qala bilmərəm" deyərək atasına qarşı çıxdı. Sakarya savaşının qazanıldığını öyrənən kimi universitet təhsilini yarıda qoydu, Marsilyadan gəmiylə İzmirə qayıtdı.

Babası Sadıq bəyin Göztepedəki köşkünə köçdü.

***

Boynundakı qapaqlı medalyonda Atatürkün şəklini daşıyırdı. Bir fransız qəzetindəki xəbərdən kəsmişdi.

***

Və nəhayət, o an - 9 sentyabr.

Küllərindən yenidən doğulan gözəl İzmir, axşamın qaranlığında məşək kimi yanırdı.

Atatürkü aparan avtomobil bənövşə qoxulu, bənövşə rəngli köşkün baxçasına girdi.

Lətidə onu qapıda qarşıladı.

"İzmir"ə təşrifinizlə türk milləti muradına çatdı, evimə şərəf verməyinizlə mən də muradıma çatmış sayılıram, minnətdaram, xoş gəldiniz, paşam" - dedi.

***

Terastda süfrə qurulmuşdu.

Mustafa Kemal, İsmet paşa, Fevzi paşa, Ruşen Eşref, Falih Rıfkı, Yakup Kadri...

Yeməklər gözəl idi. Xüsusilə "kalamar tava"nın dadını heç biri unutmayacaqdı, xatirələrində yazacaqdılar.

Fevzi paşa xaric hamı qədəhini doldurdu.

***

Atatürkün o möhtəşəm qızı və o sehirli gecəni unutması mümkün deyildi.

Ankaraya qayıdar-qayıtmaz Milli Mübarizə boyunca mindiyi ərəb atı Sakaryanı Lətifəyə göndərdi.

Nişan hədiyyəsi idi.

***

29 yanvar 1923-cü ildə evləndilər.

***

Elçilik olmadı.

Atatürk şəxsən özü Lətifəyə evlilik təklifi etdi.

Qaynatası ilə nikah gününün tarixini müəyyənləşdirdi.

***

İzmir müftisi çağırıldı.

Yerdə yox, Masada oturdular.

***

Lətifə tünd boz sadə bir don geyinmişdi, Parisdən almışdı.

Saçına ağ ipək örtük atmışdı.

Əslində əlbəttə ağappaq bir gəlinlik geyinmək istəyirdi, amma qaynanası Zübeydə xanım yeni vəfat etmişdi, yaxşı çıxmazdı.

Həyatının bu ən xoşbəxt günündə fədakarlıq etməyə məcbur idi.

***

Atatürk üç parçalı tünd mavi kostyum geyinmişdi.

Qırmızı qalstuk taxmışdı.

Kostyumun pencəyinin döş cibinə ağ yaylıq qoymuşdu.

***

O zamanlar cümə axşamı evlənirdilər, adət idi.

Amma onlar bazaar ertəsi evləndilər.

Nikahda qadın olmazdı, gəlin əvəzinə vəkili iştirak edirdi.

Amma Lətifə şəxsən özü iştirak edirdi.

***

Atatürk yoldaşına kibrit qutusu böyüklüyündə qızıl qutuda Qurani-Kərim hədiyyə etdi.

Lətifə isə ona gümüş siqara tabakıyla bir qalstuk iynəsi verdi.

***

Nikahdan sonra 50-yə qədər qonağa çay qonaqlığı verildi.

Qonaqlara şirniyyatlar, kasıblara yemək paylanıldı.

***

"Lətifə" demirdi, "Latif" deyirdi, "dişi yavərim" deyirdi.

Lətifə çox tezdən qalxır, xarici qəzetləri oxuyub qeydlər aparır, səhər qəhvəsilə birlikdə Atatürkə aparırdı.

***

Məmləkətdə gəzintilərə yoldaşlıq edir, Anadolu qadınlarını təəssübkeşliyə qarşı təşviq edir, xarici diplomatlara ayrılan lojadan TBMM iclaslarını izləyir, bəzi gözəl axşamlarda Atatürkün sevdiyi musiqiləri pianoda ifa edirdi.

***

"Kamal" deyə xitab edirdi.

Yoldaşının olmadığı yerlərdə üçünkü adamla söhbət edəndə də "qazi" və ya "cümhurrəisi" deyə bəhs etmədi. "Kamal bu qərarı verdi", "Kamal ora getdi" deyərdi.

***

Qadınların hələ seçmək və seçilmək haqqı yox ikən səs yığan ilk qadın idi.

1923-cü ilin iyununda keçirilən Türkiyənin ilk ümumi seçkilərində namizəd olmadığı halda, hüquqi namizəd olmaq imkanı olmadığı halda, İzmirdə və Konyada Lətifəyə səs verdilər.

O, təşəkkür teleqrafı yayımladı.

"Mənə millət vəkili seçkilərində səs verilməyini şəxsim adına deyil, türk qadınına yönəlmiş bir təqdir kimi qəbul edirəm, bu səbəblə həyəcanla şükranlarımı ərz edirəm" - dedi.

(ardı var)

Dilimizə uyğunlaşdıran
Eminquey

# Şəhid və əlil ailələrinə evlər verildi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Lənkəran rayonunda inşa etdirilmiş 14 fərdi yaşayış evi şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə təqdim edilib.**



Nazirlikdən verilən məlumata görə, evlərin təqdim edilməsi tədbirində Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov, Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Xalid Rəhimov iştirak edib.

Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğı göstərdiyini vurğulayan V.Behbudov bunun daha bir təzahürü kimi həssas əhali qrupları ilə bağlı sosial müdafiə proqramlarının ildən-ilə genişləndiyini diqqətə çatdırıb.

O qeyd edib ki, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının yaxşılaşdırılması ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu kateqoriyalardan olan vətəndaşların mənzillə təminatı işləri də getdikcə güclənir. Onlara 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626, ötən il 934 mənzil və fərdi ev verilib. Dövlət başçısının tapşırığına əsasən 2020-ci ildə isə şəhid ailələrinə və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. Hazırda Lənkəran rayonunda təqdim edilən fərdi evlər də daxil olmaqla, onlardan artıq 568 mənzil və fərdi ev (o cümlədən 554 mənzil, 14 fərdi ev) verilib. Digər mənzillər və fərdi evlər də ilin sonunadək veriləcək.

V.Behbudov ümumilikdə ötən dövrdə şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə 8156 mənzil və fərdi ev verildiyini bildirib. O, həmçinin Nazirlik tərəfindən müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 2018-ci ildə 265 avtomobil, 2019-cu ildə 600 avtomobil verildiyini deyib. 2020-ci ildə onlara 400 avtomobil verilməsinin nəzərdə tutulduğunu və onlardan artıq 150-nin təqdim edildiyini, bu vaxta qədər müharibə əlilləri və onlara bərabər tutulanların 6900 minik avtomobili ilə təmin olunduğunu qeyd edib.

**Yeni fərdi yaşayış evi ilə təmin edilən şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri onların sosial müdafiəsinin gücləndirilməsinə göstərilən yüksək qayğıya, yeni fərdi yaşayış evləri ilə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.**

**İşğalçı Ermənistan on illərdir ki, müstəqil(!) respublikamızın 20 faizlik ərazisində ələ keçirdiyi minlərlə qız-gəlinimiz kimi təbiətimizi, meşə, bulaq və çaylarımızı da əsirlikdə saxlamaqda davam edir... Vaxtilə məcralarına, bəndə-divara sığmayan şaqraq dağ çaylarımız bu gün düşmən əlində zəncirlənib, axar-baxarını itirib və sanki lal-kor bir dustaq həyatı sürür... Onların qarşısını ermənilər istədikləri yerdə kəsir, sularını istədikləri yerə döndərir, balıqlarını istədikləri kimi, elektrik, partlayıcı və s. qeyri-insani vasitələrlə ovlayırlar...**

Bu mövzudakı ötən yazımızda Laçın rayonu ərazisindəki çaylarımız üzərində



# Kəlbəcərdə İngiltərə, ABŞ və Almaniya şirkətlərinin idarə etdiyi SES-lər var

## "Artsax" SES ASC-nin səhmlərinin 17,2% -i Ermənistanın Marseldəki fəxri konsulu, İsveçrə mənşəli Vardan Srmakeşə məxsusdur...

## *"Bundan sonra sözü veririk Azərbaycan Silahlı Qüvvələrinə..."*

qanunsuz olaraq tikilən SES-lər və onların oliqarx erməni sahiblərindən bəhs etmişdik.

Bu dəfə təqdim etdiyimiz materialda isə Kəlbəcər rayonundakı çaylarımız üzərində tikilmiş və tikilməkdə olan qeyri-qanuni SES-lərdən danışacağıq...

Moderator.az-ın araşdırmalarından bəlli olur ki, Xankəndindəki separatçı-terrorçu rejimin iqtisadi rəqabətin tənzimlənməsi üzrə qanunsuz komissiyasının məlumatına görə, "Şaumyan" adlandırılmış Kəlbəcər rayonu ərazisində 7 kiçik su elektrik stansiyası fəliyyət göstərir. Həmin SES-lərin sahibləri təsadüfi insanlar deyil, hamısı işğalçı Ermənistanın, Qarabağdakı qondarma rejimin keçmiş və ya indiki məmurları və ya onlarla əlaqəli olan ermənilərdir.



Əyanilik üçün Kəlbəcərdəki bir neçə SES və onları idarə edən erməni şirkətləri barədə ətraflı məlumat veririk.

### *"Elite Hydro" ("Elit Hidro")*

Elite Hydro" MMC-nin 25 dekabr 2019-cu ildə verilmiş qanunsuz lisenziyası 2025-ci ilə qədər qüvvədədir. "Elite Hydro" SES-in quraşdırılma gücü - 13,034 min MVt, orta illik enerji istehsalı - 70,5 milyon kvt/saatdır.

***SES-in tikildiyi konkret məkan haqda məlumat yoxdur. Bölgədə gücünə görə birinci olan SES-i idarə edən şirkətin təsisçi və direktoru Arsen Ağamalyan əvvəllər "Atrium" inşaat şirkətində Mikael Atayanla birgə işləyib.***

***Qarabağda hər kəs Mikael Atayanın separatçı rejimin keçmiş rəhbəri Bako Saakyanın yaxın adamı olduğunu bilir. Mikael Atayan eyni zamanda "Elite Group" şirkətinin səhmdarı və "Rossiya" restoran kompleksinin direktorudur.***

### *"Visavt" MMC*

Növbəti kiçik SES "Visavt" MMC tərəfindən idarə olunur. Tərtər çayı üzərində, yəqin ki, İstisuya yaxın ərazidə yerləşən SES "Jermajur" ("İstisu") adlanır. "Jermajur"un quraşdırılma gücü 12,003 MVt, orta illik enerji istehsalı 83,538 milyon kilovat-saatdır. Qondarma rejimin nəzarət etdiyi ərazidə gücü baxımından ikinci, orta illik istehsal baxımından birincidir. "Visavt" şirkəti 2015-ci ilin aprelində qurulub. Şirkət Ermənistanın keçmiş baş naziri Karen Karapetyan ilə əlaqəlidir. Şirkətin səhmlərinin böyük hissəsi - 60% -i onun qardaşı oğlu 27 yaşlı Vram Karapetyana məxsusdur. "Jermajur" SES-in qanunsuz lisenziyası 2017-ci ildə verilib və 2027-ci llədək qüvvədədir. Kəlbəcərdəki üçüncü ən böyük SES - "Lev-1" - "Artsax SES" Açıq Səhmdar Cəmiyyətinə aiddir. "Lev-1" Lev çayının sağ sahilində, "Çapni" adlandırılmış kəndlərdən birinin yaxınlığında yerləşir. Qurulma gücü - 7,562 meqavat, orta illik elektrik enerjisi istehsalı - 37,435 milyon kilovat-saatdır. Su elektrik stansiyasının istismarı üçün qanunsuz lisenziya 2018-ci ilin dekabrından verilib və 2033-cü ilədək "etibarlı" sayılır.

***Quraşdırılma gücü 79,5 MVt olan "Artsax SES" ASC Qarabağda ən böyük hidroelektrik enerji istehsalçısıdır. 2007-ci ildə separatçı xunta rejiminin qərarı ilə qapalı bir səhmdar cəmiyyəti şəklində qurulub. Və rejim təmsil etdiyi şirkətin 100% səhmlərinə sahib olub. Lakin 2008-ci ildə rejimin yeni qərarı ilə "Artsax" SES Qapalı Səhmdar Cəmiyyəti "Artsax SES" Açıq Səhmdar Cəmiyyəti olaraq yenidən təşkil edilib.***

Hazırda "Artsax" SES-də 8 SES-i idarə edir. Onlardan ən güclüsü Sərsəng su anbarı üzərində qurulmuş 50 MVt-lik SES, ikincisi isə 7.562 MVt gücündə olan "Lev-1" SES-dir. Hazırda separatçı rejim rəhbərliyinin "Artsax" SES-də payı yoxdur. Əvəzində şirkətin üçü xaricdə qeydiyyatdan keçmiş şirkətlər olan dörd böyük səhmdarı var. "Artsax" SES ASC-nin səhmlərinin 17,2% -nin sahibi "Multikontinental Distribution" MMC-dir. Bunun 75% -dən çoxu Ermənistanın Marseldəki fəxri konsulu, İsveçrə mənşəli bir iş adamı Vardan Srmakeşə məxsusdur. Şirkət İngiltərədə qeydiyyatdan keçib.

***"Artsax" SES ASC-nin səhmlərinin 10,4% -i Almaniyada qeydiyyatdan keçmiş "KGAL New Frontiers" şirkətinə məxsusdur. Vladimir Şekoyan şirkətin xüsusi məsləhətçisidir. 2017-ci ildən bəri "Artsax" SES ASC İdarə Heyətinin üzvüdür. Şekoyan, mərkəzi ABŞ-da yerləşən və altı ölkədə ofisləri olan beynəlxalq maliyyə və iqtisadi investisiya şirkəti - "KGAL New Frontiers"-ə rəhbərlik edir.***

### *"River Energy" SES*

Kəlbəcərin Zar kəndi yaxınlığında Qarağac çayının Tərtər çayına töküldüy yerdə yeləşən və quraşdırılma gücü 4 min meqavat olan SES eyniadlı "River Energy" MMC tərəfindən idarə olunur. 2016-2019-cu illərdə qondarma "müdafiə ordusu"nun keçmiş komandir müavini, "Artsax" "azadlıq" mübarizləri birliyinin sədri general-mayor Samvel Karapetyan "River Energy" MMC-nin səhmlərinin 50% -nin direktoru və sahibi idi. 2019-cu ilin avqust ayından etibarən Samvel Karapetyan payını oğlu Valeri Karapetyana köçürüb. O, eyni zamanda şirkətin direktorudur. Bundan əlavə, Kəlbəcərin"Yexegnut" adlandırılmış Qamışlı kəndi yaxınlığında Lev çayı üzərində "Tartar Energy"MMC tərəfindən idarə olunan "Lev-2" SES, yenə Qamışlı kəndi yaxınlığında Meydan çayı üzərində yeləşən və "Meqaton" şirkəti tərəfindən idarə olunan "Yexeqnut" SES, "Limeston" şirkəti tərəfindən Lev çayın üzərində "Nor Getaşen" ərazisində tikilmiş "Yexeqnut-1" SES-i fəaliyyət göstərir.

**Son məlumatlaa görə, hazırda kəlbəcər ərazisində daha 4 SES tikilir. "Artsax" SES tərəfindən Zar kəndi yaxınlığında "Karvaçar" SES, "Nor Getaşen" kəndi yaxınlığında "Enerji stroy" şirkəti tərəfindən "Getaşen" SES, Qamışlı kəndi yaxınlığında Meydan çayı üzərində eyni adlı şirkət tərəfindən "Mrav" SES, "General Energy" şirkəti tərəfindən Zar kəndi yaxınlığnda eyni adlı SES tikilməkdədir.**

***P.S. Bundan sonra sözü veririk Azərbaycan Silahlı Qüvvələrinə...***

**Sultan Laçın**

*Aqil ABBAS*

# BEKARÇILIQDAN İNDİ DƏ RAYONLARI LƏĞV EDİRİK

(əvvəli 1-ci səhifədə)

**Xüsusən də Türkiyəni misal çəkirlər ki, 82 milyon əhalinin yaşadığı o boyda ölkədə cəmi 83 rayon var.**

**Amma Türkiyədə də rayonların sayı azaldılmır, artırılır. Əvvəllər 81 idi, indi 83 olub. Məsələn, Iqdırı Qarsdan ayırıb ayrıca rayon elədilər, yəni qardaşlarımızın diliylə desək, il. İlləri valilər idarə edir və hər ildə də bir neçə ilçə var, onları da kaymakanlar. Və hər kaymakan da öz ilçəsinin sahibidi. Və ilin polisi, jandarması, prokuroru da valinin tabeçiliyindədi. İlçələrin hüquq-mühafizə orqanları da kaymakanların. İl və ilçələrin iqtisadi cəhətdən idarə edilməsi bələdiyyələrin səlahiyyətindədi. Amma bələdiyyələrin fəaliyyətinə də valilər və kaymakanlar nəzarət edir. Yəni onu demək istəyirəm ki, Türkiyədə də icra hakimiyyəti orqanları var. Bu belə.**

**Vaxtilə gərək ki, 63-cü il idi, Xruşşov da rayonları birləşdirdi. Məsələn, Ağcabədi rayonu ləğv edilərək Ağdamın tabeliyinə verildi. Lakin bu, özünü doğrultmadığına görə uzun sürmədi və yenidən birləşdirilən rayonların statusları bərpa olundu.**

**Təklif edirlər ki, Abşeron rayonu ləğv edilərək Bakıya birləşdirilsin. Abşeron kənd təsərrüfatı rayonudu, Bakı kənd təsərrüfatı şəhəri deyil.**

**Əksinə, Qaradağ rayonu da Bakıdan ayrılıb müstəqil rayon olmalıdır ki, Bakının yükü bir az azalsın. Qaradağ rayonunun bütün ərazisi və obyektləri Bakı şəhərinin qırmızı xəttindən kənardadı. Mən təklif vermədim ey, ümumiyyətlə deyirəm.**

**Və sonda. Əgər Gəncənin Nizami və Kəpəz rayonları ləğv edilirsə, onda bu məntiqlə Bakı şəhərinin rayonları da ləğv edilməlidir.**

**Yadıma düşmüşkən, illər əvvəl AZAL-ın prezidenti Cahangir Əsgərov Aeroportun prokurorundan xoşu gəlmədiyinə görə, ümumiyyətlə, Aeroportun prokurorluğunu ləğv elətdirdi. Bu da belə.**

***P.S.* *"Muradxan Cabbarov, Məmməd kişi və naves..." yazısını qəzetimizin şənbə nömrəsində oxuya bilərsiniz.***

## *Əlcəzair səfiri Naxçıvan Muxtar Respublikasının Bakıdakı Daimi Nümayəndəliyində olub*

**Əlcəzairin Azərbaycandakı səfiri Səlimə Abdelhaq Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərovla görüşüb.**

Səfirlikdən Adalet.az-a verilən məlumata görə, ilk öncə B.Əsgərov Əlcəzair səfirinə Naxçıvan Muxtar Respublikasının Ali məclisinin sədri Vasif Talıbovun salamlarını çatdırıb və S.Abdelhaqın Azərbaycana səfir təyin edildikdən sonra Əlcəzair səfirliyinə ilk təbrik teleqramını göndərdiyini qeyd edib.



Daha sonra B.Əsgərov Naxçıvanın tarixi, mədəniyyəti, coğrafi mövqeyi və turizm potensialı haqqında geniş məlumatlar verib. Bununla yanaşı B.Əsgərov Qarabağ məsələsinə toxunub və ermənilərin tarixi Azərbaycan torpaqlarının işğal etməsi məsələsini vurğulayıb. Əlcəzairin Azərbaycandakı səfiri S.Abdelhaq Naxçıvan Muxtar Respublikası haqqında məlumatlı olduğunu qeyd edib, həmçinin gələcəkdə əlaqələrin genişləndirilməsi və müxtəlif istiqamətlərdə əməkdaşlıq münasibətlərinin qurulmasından söhbət açıb.

## *Yunanıstanın ən böyük qaçqın düşərgəsi kül oldu*



**Yunanıstanın Midilli adasındakı Moria qaçqın düşərgəsində yanğın olub.**

Ölkənin ən böyük qaçqın düşərgəsi tamamilə yanıb. İlkin məlumata görə, hadisə zamanı ölən və yaralanan olmayıb. Əraziyə çoxlu sayda yanğınsöndürən və polis əməkdaşları cəlb edilib. Bildirilir ki, miqrantlar başqa yerlərə köçürülüb. Qeyd edək ki, Moria düşərgəsində 12 min qaçqın yaşayırmış.

## *Donald Trampın Nobel sülh mükafatına namizədliyi irəli sürülüb*



**Norveçli deputat Kristian Tibrinq-Gedde ABŞ Prezidenti Donald Trampın Nobel sülh mükafatına namizədliyini irəli sürüb.**

Bu barədə deputat Nobel komitəsinə məktub ünvanlayıb. Məktubda Donald Trampın İsraillə Birləşmiş Ərəb Əmirlikləri arasında münasbətlərin qurulmasında aparıcı rol oynadığı deyilir. Qeyd olunur ki, Yaxın Şərqin digər ölkələri də bu addımı atsa, həmin razılaşma regionun taleyində mühüm rol oynamış olacaq və bunun sayəsində Yaxın Şərq əməkdaşlıq və çiçəklənmə regionuna çevriləcək.

## *Rusiyaya qarşı sanksiyaların müddəti artırıldı*

**Avropa Birliyi Rusiyaya qarşı Ukrayna ilə bağlı sanksiyaları 2021-ci ilin martın 15-nə qədər uzadıb.**

Bu barədə AB institutlarındakı mənbə məlumat yayıb. "Ukraynadakı sabitliyinin pozulması ilə əlaqədar Rusiyanın hüquqi və fiziki şəxslərinə qarşı məhtudiyyətlərin müddəti heç bir müzakirə aparılmadan 6 ay uzadıldı", - mənbə bildirib.

**MEHRİBAN**

# ORDUYLA XALQIN VƏHDƏTİ VƏ YAXUD TOVUZ DÖYÜŞLƏRİ...



**"Növbəti dəfədir ki, Azərbacana qarşı heç bir əsası olmayan, hər hansı fakta və etibarlı mənbəyə söykənməyən, tamamiylə dezinformasiya xarakterli məlumatın yayılmasını müşahidə edirik. Bunu ölkəmizə qarşı böhtan xarakterli çirkin kompaniya kimi qiymətləndiririk".**

Bu fikirləri Xarici işlər Nazirliyinin mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva "Nezavisimaya qazeta" nəşrində guya ki, Azərbaycana Suriya döyüşçülərinin gətirilməsi və onların Ermənistana qarşı "ildırım surətli müharibəyə" hazırlaşdığı barədə dərc olunan xəbərə münasibət bildirərkən deyib. "Bu saxta kompaniyanın arxasında Azərbaycana qarşı təcavüzkar siyasəti çərçivəsində Yaxın Şərq bölgəsindən muzdluları terrorçuları cəlb etmiş işğalçı Ermənistanın durduğu heç bir şübhə doğurmur.

Artıq bütün dünya ölkələrinə də məlumdur ki, 30 ildən artıq davam edən Azərbaycan Ermənistan münaqişəsi Ermənistanın pozuculuq, riyakarlığı nəticəsində öz həllini tapa bilmir. Bununla yanaşı o da məlumdur ki, bir çox dünya ölkələri bu vacib məsələyə ikili standartlarla yanaşırlar. Belə ki, bu yanaşmalar işğalçı ölkənin əsl kim olmasını, onun yerini göstərməsinə maneçilik törədir. Son illər bir qədər intensivləşən Ermənistan dünyanı aldatmaqda, özünü yazıq göstərərək yalanlar uydurmaqda davam edir.

2016-cı ilin aprel döyüşləri zamanı təxribatlar törədən Ermənistan, bu ilin iyul ayında Tovuz rayonu istiqamətində ağır silahlardan istifadə etməklə qəfildən hücuma keçdilər. Hücuma keçən bu ac, qaniçən ordu yenə də uduzdu. Ordumuz ermənilərin belə alçaq hücumlarının dəfələrlə şahidi olub, yenə də bizim ordumuz layiqincə onların cavablnı verdi. Sıravi əsgərindən tutmuş generalımızadək Vətən, Dövlət, xalq qarşısında borcunu yerinə yetirmək üçün özlərinin ölümə getmələrini belə sübuta yetirdilət.

Qəfil başlayan döyüşdə bir generalımız -general mayor Polad Həşimov, bir neçə zabitimiz və əsgərimiz şahidlik zirvəsinə ucaldı.Bu döyüşdə ermənilər ölənlərinin sayını gizlətməyə çalışsalarda fakt faktlığında qalır.

**Ordumuz Ali Baş komandanın əmriylə əks hücuma keçərək yetərincə ermənilərin canlı qüvvəsini, döyüş texnikasını məhv etdilər. Bir neçə dayaq məntəqələrini yerləyeksan etdilər. Çox böyük itkilət verən ernəni ordusu geri çəkilməyə məcbur oldu. Çox keçmədi şəhid oğullarımızın qisas ordumuz tərəfindən alındı. Bu nə deməkdir-bu o deməkdir ki, bu gün Ermənistanın baş naziri Nikol Paşinyan siyasətini (əyər onun siyasəti varsa) hücuma keçməkdə görür. O, bir daha unudur ki, bu gün onun xalqına gələcəyini qurmaq, qonşu dövlətlərlə sülh şəraitində yaşamaq lazımdır. Torpaqdan pay olmaz-deyib atalarımız. İşğalçı dövlət unutmamalıdır ki, Azərbaycanın İlham Əliyev kimi prezidenti, güclü ordusu var, inşallah yaxın günlərdə xalqımız, ordumuz öz sözünü deyəcək...**

**Maral Həsənova,**
**Bakı şəhəri, Nizami rayonu, qeydiyyat şöbəsinin rəisi vəzifəsini icra edən 2-ci dərəcəli ədliyyə qulluqçusu**

# ÇIXIŞA DOĞRU




**... İşdən çıxıb evə qayıdırdım. Elmlər Akademiyasının qarşısındakı parkda mənə AzTV-nin bir gənc əməkdaşı yaxınlaşdı və günün vacib mövzusu ilə bağlı məndən fikimi bildirməyi xahiş etdi. Sözün açığı, həmin ana qədər dəfələrlə özəl kanalların əməkdaşları böyüklük olmasın, mənə yaxınlaşıb, müsahibə almaq istəyiblər, ancaq razılıq verməmişəm. Çünki özəl kanallarda bəzən söylənilən bir fikir təhrif olunur və olduğu kimi tamaşaçıya çatdırılmır. Amma biləndə ki, bu cavan oğlan AzTV-nin əməkdaşıdı, razı oldum. Və verdiyi sualı da cavablandırdım. "Çıxışa doğru" verilişində həmin müsahibə o günü efirdə göstərildi - özü də hər şey olduğu kimi və çox səmimi! Məndən müsahibə alan gənc jurnalist Aqşin İmanla sonradan dostlaşdıq və bir-birimizə mobil telefonumuzun nömrəsini də verdik. Aqşin o qədər tərbiyəli, o qədər mədəni, o qədər savadlı oğlandır ki, ürəyimə çox yatdı. Hətta elə bildim oğlum Emin qədər mənə çox yaxındır. Elə həmin tanışlıqdan sonra mən AzTV-də həftənin 5 günü efirə gedən "Çıxışa doğru" proqramını izləməyə başladım və özümdən asılı olmayaraq, o verilişin daimi tamaşaçısına çevrildim...**

### *Bir saat yarım efirdə*

olan bu veriliş sözün həqiqi mənasında çox baxımlı və çox da maarifləndirici bir proqramdı. Ən azından ona görə ki, verilişin formatı, mövzusu və tərtibatı tamaşaçıların diqqətini özünə daha çox cəlb eləyir. Çünki yaradıcı kollektiv günün ən aktual mövzusunu gündəmə gətirir, onu operativ surətdə hazırlayır, tamaşaçının zövqünü oxşayır və efirə çıxarır. Bu cür verilişləri hazırlamaq və tamaşaçıya təqdim eləmək elə də asan deyil.

Onun üçün ki, bu formatda verilişlər böyük bir yaradıcı kollektivin zəhmətinin bəhrəsidir. Əlbəttə, bu zəhmətdə, bu əziyyətdə proqramın layihə rəhbərinin, redaktorların, müxbirlərin, rejissorların, prodüserlərin, operatorların və digər texniki işçilərin öz payları var. Onlar hər hansı bir verilişi araya-ərsəyə gətrimək üçün onu yüz ölçüb bir biçirlər. Və bu veriliş də təbii ki, bu qədər yaradıcı axtarışdan və gərgin zəhmədən sonra tamaşaçı tərəfindən sevilir.

Artıq tamaşaçı özəl kanallarda yayımlanan bayağı verilişlərdən boğaza yığılıb. Bir müğənnini, özü də elə bir səsi və istedadı olmayan toy müğənnisini nə qədər efirdə görmək olar? Və bunlar artıq Azərbaycan tamaşaçısının gözünü yorub, mənəviyyatını da yaman günə qoyub.

Ancaq nə yaxşı ki, Azərbaycan Televiziyası var və onun da dövlətçiliyə, millətə və xalqa xidmət edən yaradıcı jurnalistləri fəaliyyət göstərir. Ümumiyyətlə, Az.TV-nin bütün proqramlarında dövlətçilik, vətənpərvərlik və maarifçilik ön plana çəkilir. Və bu proqramlarda səviyyəsiz tamaşaçının bəsit səviyyəsinə deyil, əksinə, daha zövqlü və dünyagörüşlü tamaşaçıların səviyyəsinə uyğun verilişlər hazırlanır. Birmənalı olaraq, bütün verilişlərdə tamaşaçı səviyyəsini yüksəltmək və onu inkişaf etdirmək əksər verilişlərin mayasını və qayəsini təşkil edir.

### *"Çıxışa doğru" verilişində*

də bu elementlər yaradıcı kollektiv tərəfindən veriliş boyu diqqət mərkəzində saxlanılır. Verilişə dəvət olunanlar, eyni zamanda studiyadan birbaşa telefon bağlantısı yarananda, küçədə müxbirlərin ayrı-ayrı şəhər sakinlərindən orijinal müsahibələr alanda bütün qaydalar və ölçülər gözlənilir. Yəni studiyaya dəvət olunmuş hər bir qonaqdan tutmuş, telefon əlaqəsi yaradılmış şəxsə və o cümlədən müsahibə verən insanlara çox böyük hörmətlə, sevgiylə yanaşılır.

### *Layihə rəhbəri*

***və aparıcı, istedadlı jurnalist Nailə Babayevanın özünəməxsus bir formada, tərzdə müsahibi ilə səmimi söhbəti, efirdə danışan hər hansı şəxsin öz fikrini daha səmimi və səlis ifadə etməyə şərait yaradır. Elə aparıcı var ki, verilişə dəvət etdiyi qonağa sual verir və danışmağa imkan yaratmır. Elə aparıcı da verdiyi sualı cavablandırır. Studiyaya dəvət olunmuş müsahib isə çıxılmaz vəziyyətdə qalır.***

Yadıma aparıcılarla bağlı bir veriliş düşdü. Özəl televiziya kanallarının birində gənc xanım aparıcı məşhur telejurnalist Telli Pənahqızıdan müsahibə alırdı. Və həmin gənc jurnalist Telli Pənahqızına sual verəndən sonra danışmağa imkan vermir, tez-tez sözünü kəsirdi. Və bundan da təngə gələn Telli xanım dedi ki, "ay qız, dilotu yemisən? Məni dəvət eləmisən, imkan ver, danışaq". Telli xanımın bu iradından sonra aparıcı bir qədər sakitləşdi və hərəkətindən peşman oldu.

Azərbaycan Televiziyası bizim ana televiziyamızdır. Və onun zəngin və yaddan çıxmaz ənənələri var. Çünki o məktəbdən Azərbaycanın ən məşhur diktorları, jurnalistləri, yaradıcı ziyalıları çıxıb. Və bu ənənə bu səliq-səhman və bu tarixi missiya bu gün də davam edir.

Azərbaycan prezidenti İlham Əliyevin Sərəncamı ilə Rövşən Məmmədov "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-yə sədr təyin olunandan sonra demək olar ki, burda çox böyük islahatlara start verildi. Və qısa zaman kəsiyində bir-birindən maraqlı, dövlətçiliyə və xalqa xidmət edən layihələr gerçəkləşdirildi. Və bu layihələrdə demək olar ki, reytenq arxasınca yox, dövlətə və xalqa xidmət barəsində yaradıcı kollektivlər düşünməyə başladı və orijinal formatda verilişlər hazırlandı.

***"Çıxışa doğru" verilişi də məhz belə maraqlı, orijinal televiziya layihələrindən biridir. Bu verilişin yaradıcı kollektivi bayaq dediyimiz kimi, günün mövzularını diqqətdə saxlayır, gündəmə gətirir və tamaşaçı auditoriyasına çatdırır. Ermənilərin sərhədyanı rayonumuz olan Tovuza hücumu zamanı da, adi günlərdə də bu proqramın yaradıcı kollektivi çox operativ və dəqiq işləyib. Hər hansı mövzu gündəmə çıxarılır, studiyada müzakirə olunur, canlı bağlantı yaradılır, əməkdaşlar küçələrdə sakinlərin mövzu ilə bağlı müxtəlif fikirlərini öyrənir və onu böyük tamaşaçı auditoriyasına çatdırır.***

Verilişin layihə rəhbəri və aparıcısı Nailə Babayevanın isə istedadı, peşəkarlığı və bir az da dəqiq demiş olsaq, vətənpərvərliyi, səmimiyyəti tamaşaçının diqqətindən yayınmır.

### *Ən azından ona görə ki,*

gənc jurnalist Nailə xanım hamını öz dilində danışdırmağı və axıra qədər dinləməyi bacarır. Təbii ki, aparıcının bu xüsusiyyətləri verilişi izləyənlərə onu həmişə sevdirib. Çünki bəzən verilişə dəvət olunana, telefon bağlantısı yaradılana, küçədə müsahibə verən sakinə jurnalist diqqətli olmayanda, o da ürəyindən keçənləri demək istəmir və desə də, çox şablon danışır. Amma Nailə Babayevanın müsahibə aldığı insanlarla səmimi söhbəti müsahibə vereni də səmimi olmağa ruhlandırır. Eyni zamanda, gənc jurnalist və proqramın müxbiri Aqşin İman da öz müsahiblərinə çox sevgiylə, nəzakətlə yanaşır. Yəni Aqşin İman gənc olsa da, AzTV-də qazandığı təcrübə onun köməyinə çatır və müsahibə aldığı sakinlərin ürəyinin "sarı siminə" toxunur. Tamaşaçının da "boş damarını" tutdun, qəlbini ala bildin, o, sənə ürəyində nə var, hamısını danışacaq.

"Çıxışa doğru" verilişi birmənalı olaraq hər bir azərbaycanlını düşündürən, narahat edən problemləri gündəmə gətirir və ondan çıxış yolunu göstərir.

Əlbəttə, əsas məsələ problemi yada salmaq deyil, həm də o çətinlikdən çıxış yolunu göstərməkdir. Bu mənada verilişi efirə çıxaran yaradıcı kollektiv bütün məsələləri yüksək səviyyədə həll edir və tamaşaçının çiynində olan ağır yükü sanki qaldırmağa böyük köməklik göstərir.

Bu gün bizim xalqın, bizim millətin bu cür maarifləndirici verilişlərə daha çox ehtiyacı var. Çünki unudulan, yaddan çıxan və başqa televiziya kanallarının qaldırmadığı problemlər və çətinliklər AzTV-nin belə verilişləri hesabına gündəmə gətirilir. Və bu verilişlər inanıram ki, müəyyən zaman kəsiyindən sonra daha böyük tamaşaçı auditoriyası qazanacaq və onların yaddaşında silinməz izlər qoyacaqdı.

**Bir daha "Çıxışa doğru" verilişinin layihə rəhbəri və aparıcısı Nailə xanım Babayevaya və yaradıcı kollektivə böyük uğurlar arzulayırıq. Qoy onların min bir əziyyətlə araya-ərsəyə gətirdiyi, dövlətçiliyə, dövlətə, xalqa xidmət edən bu veriliş uzun ömürlü olsun, hər evə, hər ocağa sevgi və ümid paylasın!..**

**Faiq QİSMƏTOĞLU**

# Jurnalistin vətəndaş mövqeyi olmalıdırmı? - QIZĞIN MÜZAKİRƏ

***"Ədalət" qəzetinin "Dəyirmi masa"sında yenə fikirlər toqquşdu. Bu dəfəki mövzumuz "Jurnalist peşəsi və sosial məsuliyyət"dir. Qonaqlarımız Əməkdar jurnalist, professor Qulu Məhərrəmli, ARB 24 kanalının Xəbərlər departamentinin direktor müavini, BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının dosenti Aynur Nəsirova, Jurnalistika üzrə ekspert, Azərbaycan Beynəlxalq Radiosunun redaktoru, filologiya üzrə fəlsəfə doktoru Natəvan Dəmirçioğlu, BDU-nun Jurnalistika fakültəsinin dekanı, Əməkdar jurnalist Vüqar Ziferoğludur.***

**-Jurnalistika və sosial məsuliyyət, bax bu bərədə fikirlərinizi bilmək istərdim...**

**Q. Məhərrəmli:** "Jurnalist peşəsinin cəmiyyət qarşısında, informasiya verdiyi və aldığı insanlar qarşısında məsuliyyəti var. Sosial məsuliyyət isə cəmiyyət qarşısındakı məsuliyyətdir və bu məsuliyyət birbaşa jurnalistikanın özünün mahiyyətindən doğur. Jurnalistikanın cəmiyyətdəki yeri nədən ibarətdir? Jurnalistikanın əsas məqsədi nədir?

Jurnalistikanın əsas məqsədi azad cəmiyyətdə fəaliyyət göstərə bilmək üçün insanlara dəqiq və etibarlı məlumatlar çatdırmaq, insanların çevrəsində, cəmiyyətdə, gözümüzün qarşısında, ictimai həyatımızda baş verən hadisələr barəsində insanları xəbərdar etməkdir. Bu hadisələri işıqlandırmaqla jurnalistika insanlara seçim və düzgün qərar qəbul etmək imkanı yaradır. Bu çox ciddi məsələdir. Yəni obyektiv, dürüst məlumatlar insanlara öz həyatları ilə bağlı qərarlar qəbul etməyə imkan verir. Jurnalistika cəmiyyəti əks etdirir, həqiqəti yayır, sosial mühiti olduğu kimi göstərir. Onun ən mühim funksiyalarından biri də hakimiyyət üzərində ictimai nəzarəti gerçəkləşdirməkdir. Bundan başqa jurnalistika müxtəlif fikirlərin müzakirəsi üçün ciddi bir forumdur. İctimai müzakirələr, tok-şoular, voks-poplar ondan ötrüdür ki, biz jurnalistikanı sosial harmoniya, fikir mübadiləsi meydanına çevirək, digər tərəfdən də demokratiyanı təmin edək. Jurnalistika cəmiyyət üçün gərəkli bir peşədir. Onun təmsil etdiyi toplumun səsi olmaq kimi idealist bir hədəfi var.

Jurnalist cəmiyyətin ictimai təmsilçisidir, onun adından ictimai nəzarətçidir və cəmiyyət adından hakimiyyət üzərində ictimai nəzarəti reallaşdırandır. Belə bir məqam jurnalistikanın xüsusi missiyasını, cəmiyyət qarşısında məsuliyyətini müəyyənləşdirir. Jurnalistin sosial məsuliyyəti buradan qaynaqlanır. Jurnalist hər zaman həqiqətin yanında olmalı, yalan danışmamalıdır".

**V. Zifəroğlu:** "Ümumiyyətl,ə sosial məsuliyyət, yalnız jurnalistikaya deyil, ictimaiyyətə yönəlik, auditoriya ilə işləyən bütün peşələrdə var. Təbii ki, jurnalistikada isə bu özünü daha qabarıq şəkildə göstərməlidir. Jurnalistika cəmiyyətə təsir etmək gücünə malik sosial-siyasi institutdur. Bu baxımdan sosial məsuliyyət hər bir peşəkar jurnalistin peşə fəaliyyətində başlıca meyardır. Müasir dövrdə informasiyanın necə mühim, necə əhəmiyyətli məhsul olduğunu nəzərə alsaq, sosial məsuliyyət anlayışının ön planda tutulmasının vacibliyini görə bilirik. Mövcud olan klassik sosial məsuliyyət nəzəriyyəsi də məhz bunu ehtiva edir. Jurnalistikada sosial məsuliyyət son dərəcə vacib və əhəmiyyətli bir amildir".

**A. Nəsirova:** "Jurnalist sosial güc dürmü? Bunu demək elə də asan deyil. Amma onun sosial məsuliyyəti peşəsinə sadiq olması deməkdir. Əslində jurnalistika ictimai peşə sayılır. Jurnalistin sosial məsuliyyəti dedikdə, onun öz peşəsini dürüst, doğru yerinə yetirməsi nəzərdə tutulur. Bütün jurnalist təşkilatlarının, qurumlarının jurnalist kodekslərində tələb eynidir: obyektivlik, qərəzsizlik, neytrallıq. Əgər jurnalistlər bu deyilənlərə əməl etsələr, demək sosial məsuliyyətlidirlər. Amma çox təəssüf olsun ki, bəzən qərəzli, cəmiyyət arasında çaxnaşma yaradan, yoxlanılmayan məlumatların da şahidi oluruq.

COVİD-19 pandemiyası ilə bağlı ilk vaxtlar biz ənənəvi medianın sosial məsuliyyətini gördük, bu bəlaya çox ehtiyatla yanaşıldı, insanlara mənfi-psixoloji təsir göstərə biləcək xəbərlərdən yan keçildi. Sosial mediada isə bunun tamam əksi oldu, çünki sosial medianın cəmiyyət qarşısında hər hansı bir öhdəliyi yoxdur".

**N. Dəmirçioğlu:** "Jurnalist peşəsi", əvvəl diqqəti bu ifadəyə yönəltmək istəyirəm. Biz jurnalistikanı bir elm, bir sənət səviyyəsinə qaldırmaq üçün çox çalışdıq. Bu yöndə xeyli nəticələr özünü təsdiq etdi. Jurnalistikanın bir sıra



ictimai-siyasi, humanitar elmlərlə paralelliyi və yaradıcı təfəkkür, kreativ düşüncə tələb edən sahə olmağı bu potensialın real olduğunu təsdiqləyir. Nə acı ki, jurnalistikaya axın və jurnalistikadan axın bu sferanı yenidən daha bərbad vəziyyətə qoydu. Qeyri-peşəkarların müxtəlif vasitələrlə burada üsünlük əldə etməsi və hətta daha populyar olmaları jurnalistikanı peşə səviyyəsinə endirir.

Jurnalistikanı elm, sənət səviyyəsində bəlkə də çoxları təsəvvür edə bilmir, bu onlara utopiya kimi görünür. Jurnalistikanın ictimai insitut olması isə nə utopiyadır, nə arzu, nə də istəkdir, tam reallıqdır. Dünyanın inkişaf etmiş, demokratik ölkələrində jurnalistika ictimai insitutdur. "Dördüncü hakimiyyət" deyib öyündüyümüz keyfiyyət artıq xeyli geridə qalıb. Demokratik cəmiyyətin əsas göstəriciləri həm də vətəndaş cəmiyyətinin mövcudluğu və ictimai insitutun fəaliyyət göstərməsidir. Unutmayaq ki, bunu azad jurnalistika yaradır.

Sosial məsuliyyət isə nəinki jurnalist, hər bir insan üçün vacibdir. Sosial məsuliyyət şəxsiyyətin toplum içərisində özünü ifadə missiyasını və onun sərhədlərini müəyyən etməsidir. Fərd jurnalistdirsə bu məsuliyyət on qat atıq zərurətdir. Müəllimlərimiz-Nəsir İmanquliyev, Şirməmməd Hüseyinov, Tofiq Rüstəmov, Yalçın Əlizadə, Cahangir Məmmədli və başqalarının dediyi kimi, "Jurnalist ictimai xadimdir"sə, jurnalistika hazırda dünyada ictimai insitutdursa, onda bu məsuliyyət, həqiqətən, on qat artmış olur"

**-Hər zaman bir sual diqqət mərkəzində yer alıb, jurnalistin vətəndaş mövqeyi olmalıdırmı?**

**Q. Məhərrəmli:** "Müstəqillik illərində ən çox müzakirə olunan məsələlərdən biridir ki, jurnalistin vətəndaş mövqeyi olmalıdırmı, ya yox? Mən hesab edirəm ki, bu sual məqsədli şəkildə verilmiş və tənqid yazan jurnalistlər üçün hesablanmış bir sualdır. Məsələn, Xarici İşlər Nazirliyində hansısa nöqsanlar var. Biz bunu tənqid edə bilərik, ya yox? Hakimiyyətin bəzi qurumlarının korrupsiya ilə məşğul olmasını biz yaza bilərik, ya yox? Ölkə haqqında müsbət rəy formalaşdırmayacaq tənqidi materiallar olmalıdır, ya yox?

Bütün peşələrin daşıyıcıları həm də ölkəsinin vətəndaşıdırlar. Həkimin də, müəllimin də, jurnalistin də vətəndaşlıq borcu var. Bu vətəndaşlıq borcu onun vəzifəsindən irəli gələrək hər şeyi yüksək səviyyədə etməklə bağlıdır. Bu cür tezislərin ortaya atılmasının əsas məqsədi jurnalistləri prinsipial, aydın mövqe nümayiş etdirməkdən çəkindirməkdir. Xüsusən də, tənqid yazan jurnalistlərə mənəvi cəhətdən təzyiq məqsədi daşıyır və hesab edirəm ki, bunlar çox gərəksiz mübahisələrdir. Ümumiyyətlə, bu məsələləri birbirinə qarşı qoymaq yalnışdır. Jurnalistin vətəndaş mövqeyi peşəsinin prinsiplərini rəhbər tutmaq, peşəsindən irəli gələn vəzifələri reallaşdırmaq, nöqsanları demək, həqiqəti çatdırmaq, insanların yanında olmaq, cəmiyyətin inkişafına kömək etməkdir. Jurnalistin əsl vətəndaş mövqeyi bundan ibarətdir".

**A. Nəsirova:** "Bu məsələ ətrafında media mütəxəssisləri arasında həmişə mübahisə düşür. Kimi jurnalistin vətəndaşlıq mövqeyinin olmamasını, kimi isə əksini deyir. İlk olaraq gəlin, başqa bir məsələni-jurnalistin mövqeyi və jurnalistin vətəndaşlıq mövqeyini aydınlaşdıraq. Bunlar fərqli anlayışlardır. Bəli, jurnalistin mövqeyi olmamalıdır. Bütün jurnalist kodekslərində bu, birmənalı şəkildə qeyd edilir. Jurnalist bitərəf olmalıdır, əks halda o faktı təhrif edəcək və cəmiyyətə qeyri-obyektiv informasiya ötürəcək. Nəticədə həm öz peşəsinə, həm də cəmiyyətə xəyanət edəcək. Vətəndaşlıq mövqeyi isə baş verən hər hadisəyə, prosesə münasibət bildirmək demək deyil. Məsələn, Aprel döyüşlərini götürək. Tutaq ki, sənin yayımlayacağın xəbər təmsil etdiyin mediaya böyük reytinq gətirə bilərdi, amma bu, Azərbaycan əsgərinin ölümünə səbəb olacaqdı. Sən xəbəri yayardınmı? Biz jurnalistlər bu suala cavab ilə vətəndaş mövqeyni göstərmiş oluruq".

**V. Zifəroğlu:** "Jurnalistin vətəndaş mövqeyinin olması ilə bağlı hələ 19-cu əsrin soni, 20-ci əsrin əvvəllərində qərb mətbuat klassiklərinin, publisistlərin müzakirələri, polemikaları olub. Doğrusu, 21-ci əsrin əvvəlində, xüsusən Azərbaycanda zaman-zaman bu mövzu ətrafında müzakirələrin açılmasının səbəbini anlaya bilmirəm. Jurnalistin, ümumiyyətlə istənilən peşə sahibinin öz peşə borcunu şərəflə, ləyaqətlə yerinə yetirməsi, elə onun vətəndaşlıq borcu, mövqeyidir. Bu səbəbdən "Jurnalistin vətəndaşlıq mövqeyi olmamalıdır" fikirləri ilə razılaşmıram. Jurnalist-yetişdiyi, çalışdığı, gündəlik mövzularını həyatından götürdüyü cəmiyyətinin bir hissəsidir. Bir az öncə də qeyd etdim, jurnalistika cəmiyyətə təsir etmək gücünə malik sosial-siyasi institutdur. Bu peşənin sahibi kimi jurnalist cəmiyyətin maraqlarını qorumalı, onun bilgiləndirilməsi, maarifləndirilməsi üçün peşə vəzifəsindən irəli gələn fəaliyyət sərgiləməlidir. Bu ilk növbədə indi ölkəmizə qarşı düşmənlərimizin apardığı informasiya müharibəsi səbəbindən xüsusilə önəmlidir".

**N. Dəmirçioğlu:** "Sualınıza "bəli" və "xeyr" cavabları adekvat deyil. Bir çox səbəblərdən. Ən əsası isə bu məsələdə peşənin əxlaq kodeksi, insanlıq kodeksi, sənət tələbləri ilə vətəndaşlıq tələbləri üst-üstə düşməyə bilir. Belə olan halda vəziyyət çətinləşir. Bilirsiniz, xəbər əsasdır, heç nə xəbərdə əsas deyil-bu işin tələbidir. "Milli mənafe" isə başqa şey diktə edə bilər. Fikrimi aydınlaşdırmaq üçün bir situasiyanı xatırlatmaq istərdim. Deyirik, jurnalist dürüst, vicdanlı, qərəzsiz olmalıdır.

Amma izah etmirik ki, jurnalist bu tələblərə necə əməl etməlidir. O qədər vicdansız, qərəzli xəbər var ki... Demək, elmi- nəzəri olaraq incələsək, görərik ki, jurnalistin xəbər kimi təqdim etdiyi informasiya dürüst, rəy kimi tədim etdiyi informasiya vicdanlı və qərəzsiz olmalıdır. Dediyiniz məsələdə də təxminən vəziyyət belədir: İnformasiya mövqesiz, dürüst olmalıdır. Şərh, izah, icmal xarakterli təqdimat, interpritasiya jurnalistlikdir. Peşəkarcasına mövqeyi qorumaq, mətnaltı, təhdəlşüurda mövqeyi saxlamaq, qorumaq İlahi borcdur".

**Rövşən Tahir**

## Əbülfət Mədətoğlu kitabının adını niyə "ancaq O" qoydu...

**Ədəbiyyata çoxları gəlib, elələri olub ki, ədəbiyyatın qapısını birdəfəlik örtüb və çıxıb gedib. Amma getməyənlər də, ədəbiyyatın zülmünə, məşəqqətinə, məhrumiyyətlərinə, bir çox halda ədalətsizliyinə dözüb sözünü təselliyə çevirib qalıb. Əvvəlcə sözünü, sonra isə özünü tanıdığım bənzərsiz şair-publisist, respublikanın əməkdar jurnalisti Əbülfət Mədətoğlu sonunculardandır, ədəbiyyatın ədalətsizliklərinə dözüb, ondan ədalət gözləməyənlərdən. Əslində, ədəbiyyatdan ədalət ummağın özü mənasızdır.**

Ə.Mədətoğlu sözə zərgər dəqiqliyilə yanaşır. Bəlkə də heç bu onun öz iradəsindən asılı deyil, ona söz badəsi içirən onun sözə yanaşmasını bu cür biçib tikib. Bəzən şairlər deyirlər ki, filan şeiri necə yazdığımı bilmədim, bir də gördüm ki, yazmışam.

"Məhsuldar yazıçı", "məhsuldar şair" sözündən xoşum gəlmir, odur ki, Əbülfət müəllimi belə adlandırmayacağam, çünki o, şeiri yaşadığı və yaşatdığı mübhəm sevgi duyğuların pərdəsi arxasında dünyaya gətirir. Bəli, əsl şair sözü dünyaya gətirir. Axı şair sözün anasıdır, həm qulu, həm də ağasıdır. Gecələr yatmayıb səhər o başdan, dan üzündə, Tanrının könlünün, qəlbinin, dərgahının açıq çağında doğulur şeirləri şairin.

*Sən Dan üzü gətirmisən ömrümə,*
*Şehi də var, ətri də var, səsi də...*
*Sirr deyil ki, o dan üzlü ömrüm də*
*Bəyəndirib sənə bu mən kəsi də!...*

*O, dan üzü-and içdiyin, ancaq O,*
*Hər halından söz biçdiyim ancaq O!*
*Baxışından "döz!" biçdiyim-ancaq O-*
*Mənə verdi Ümid adlı dərsi də!...*

Dan üzündə könül açdığı Tanrı ona dözümü, səbri və ümidi əmanət verdi ki, onlara pənahlanıb yazsın, yaşasın, yaşatsın. Sizə təqdim etdiyim bu misralar Ə.Mədətoğlunun "Adiloğlu" nəşriyyatında çapdan yenicə çıxan "ancaq O" kitabındandır. Ancaq O, kimdir? Onu şair bilir, yazan və yozan bilir, illərdir Tuğ həsrətilə sözünü sinəsində saz edən ozan bilir - Əbülfət müəllim bilir.

*Dağ boyda ağrıyam, sel boyda kədər-*
*Allahım, ortadan götür bu yükü...*
*Ürəyə ağırlıq verməyim hədər-*
*Üzü günbatana ötür, bu yükü...*

Ə.Mədətoğlunun "ancaq O" şeirlər kitabının redaktoru Fəridə Rəhimli kitaba kiçik bir qeyd yazıb. Fəridə xanım yazır ki, "...ancaq O" yaşanmış, yaşanan və yaşanacaq duğyuların özü və pıçıltılarıdır... "ancaq O"-nu oxuyun! Yaşadıqlarınızı yenidən yaşayın, yaşayacaqlarınızın xəyalını qurun, düşünün.

*Haqqın yerdə zərrəsi*
*Ruhun şehli-tar səsi!*
*Ürəyimin pərdəsi-*
*ancaq O!*

Əbülfət müəllimin "ancaq O" kitabında maraqlı şeirlər toplanıb, məncə, hər bir oxucu, şeiri hiss edən, yaşayan insan bu şeirlərin içində özünü tapa, öz ruhunun səsini duya bilər. Çünki bəzən elə gözəl bir şeir oxuyursan ki, o, sənin ruhuna biçildiyindən, elə bilirsən ki, onu elə sən özün yazıbsan. Bu baxımdan, Əbülfət müəllimin şeiri oxucuya özü yazıbmış kimi doğmadır, əzizdir.

***Redaksiyamız adından əziz Əbülfət müəllimi növbəti şeirlər kitabının nəşri münasibətilə ürəkdən təbrik edirəm. Dan üzünə deyilən, sonra vərəqlərə hopub şeirləşən yeni kitablarınızı gözləyirik, Əbülfət müəllim!***

**İradə Sarıyeva,**
**baki-xeber.com**

## *Ölkədə mövsümi yarmarkaların fəaliyyəti dayandırılıb*

**Kənd Təsərrüfat Nazirliyi ölkə ərazisində təşkil etdiyi mövsümi yarmarkaların fəaliyyətini dayandırıb.**

**Bunu Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan Aqrar Tədarük və Təchizat ASC-nin mətbuat katibi Mayis Musayev deyib.**

**Onun sözlərinə görə, yarmarkaların fəaliyyətinin dayandırılması pandemiya ilə əlaqədardır: "Ölkədə koronavirus infeksiyası ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargah kütləvi tədbirlərin keçirilməsini qadağan edib. Ona görə də biz mövsümi yarmarkaların keçirilməsini saxlamışıq. Operativ Qərargah bu cür tədbirlərin keçirilməsinə icazə veriləndən sonra yarmarkaların fəaliyyəti bərpa ediləcək. Kütləvi tədbirlər qadağan edildiyi üçün həm də bal yarmarkalarının təşkili təxirə salınıb".**

## *Universitetlər açıldı, 37 mindən çox yoluxma sayı qeydə alındı - ABŞ-da son vəziyyət*



***Dünya üzrə koronavirusa yoluxan 27 milyondan çox insanın təxminən dörddə birinə ev sahibliyi edən və rəsmi statistikaya görə 6,5 milyondan çox yoluxmanın olduğu ABŞ-da yoluxma sayı durmadan artır. Adalet.az xəbər verir ki, ABŞ-da universitetlərin açılmasından sonra virusa yoluxan tələbələrin sayı 37 mini ötdü.***

## *Patriarx koronavirusa səbəb kimi homoseksualları göstərmişdi, özü də yoluxdu*



***Ukraynada koronavirusun yayılmasının səbəbini kişilərlə kişilərin evlənməyində görən Kiyev Pravoslav Kilsəsi Patriarxı Filaretin koronavirus testi pozitiv çıxdı.***

***91 yaşlı patriarx Filaret mart ayında "Bu virus kişilərin etdiyi günahların Tanrı tərəfindən verilən cəzasıdır. Xüsusilə də kişilə evlənən kişilərin" deyə açıqlama vermişdi.***

***Eminquey***

# Şərqşünas alim

## (Maqsud Hacıyevin 85 illiyinə)



*VAQİF YUSİFLİ*

**Maqsud Hacıyev. Çağdaş Azərbayjan şərqşünaslığında özünü təsdiq edən, Şərq ədəbiyyatı ilə bağlı onlarla məqalələrin, bir neçə kitabın müəllifi. Eyni zamanda Yazıçı-publisist. Tərcüməçi. Bu adlar onun 85 illik həyat yolunu ümumi şəkildə səciyyələndirir.**

Tanınmış, elm aləmində öz sözünü deyən bir alimdən söz açanda öncə onun keçdiyi həyat yolu gözlərimiz qarşısında canlanır.

### *Keçmiş Qonaqkənd rayonunun*

Gümür kəndində, kasıb bir kolxozçu ailəsində dünyaya göz açan Maqsud Hacıyevin uşaqlığı çox fərəhsiz keçib, yetimçilik yazılıbmış onun uşaqlıq və ilk gənclik illərinə.. Atası da, anası da onu vaxtsız tərk ediblər və Maqsud Hacıyev uşaq evində böyüyüb başa çatıb. Amma bu uşaq fərasətli olub, orta məktəbi bitirən kimi heç kimin köməyi olmadan BDU-nun Şərqşünaslıq fakültəsinə daxil olub, 1959-cu ildə oranı müvəffəqiyyətlə bitirib. Bundan sonra isə elmə fanatik məhəbbəti onu pillə-pillə arzuladığı zirvəyə çatdırıb. Amma zirvəyə gedən yollar heç də asan olmayıb. Həyatda, məşğul olduğu elm sahəsində nəyə qadir olduğunu sübut eləmək üçün ən etibarlı dayağı kitablar olub. Aylarla, illərlə kitabxanalarda, onun öz sevimli ifadəsiylə desək, "dünyannın ən gözəl məbədgahı"nda vaxt keçirib.. İndi Maqsud müəllimin özünün müəllifi olduğu, redaktorluq etdiyi və rəy verdiyi kitabları, sayı-hesabı bilinməyən məqalələrini görəndə bütün bunların arxasında zəhmətlə keçən bir ömrün dəqiqələrini, saatlarını, günlərini, aylarını, illərini görürsən. Onun yaradıjılığı, geniş erudusiyası səndə heyranlıq, yaxşı mənada qibtə doğurur. Onun Şərq ədəbiyyatı ilə bağlı onlarla elmi məqalələri çap olunub, beynəlxalq elmi konfranslarda məruzələr edib və Azərbaycan şərqşünaslığını layiqinjə təmsil edib. O, İran və Əfqan ədəbiyyatının mötəbər tədqiqatçılarındandır.

***Cənubi Azərbayjan ədəbiyyatının tədqiqi və təbliği ilə bağlı xeyli yazıların müəllifidir. Maqsud müəllimin fars, əfqan, tat dilləri ilə bağlı dərslikləri, proqramları, metodik vəsaitləri və tədris materialları işıq üzü görüb. Elə bircə bu faktı nəzərə çarpdıraq ki, bizim Ensiklopediyanın elmi məlumat xarakterli "Avesta dili", "İran dilləri",Tacik dili", "Tat dili", "Puştu (əfqan) dili", "Dəri dili", "Bəluc dili", "Yazqulam dili", "İşkasım dili", "Pəncab dili", oçerklərinin müəllifi Maqsud Hacıyevdir.***

Hər bir şərqşünasın fəaliyyəti ədəbiyyat tarixi və ümumən ədəbiyyatşünaslıq elmi ilə sıx bağlı olur və Maqsud Hacıyev bu mənada həm də tanınmış ədəbiyyatşünasdır. O, Azərbacan oxucularına böyük bir həvəs və şövqlə İran və Əfqan ədəbiyyatının müxtəlif problemlərindən, bu xalqların söz-sənət korifeylərindən bəhs edən məqalələri ilə yaxşı tanışdır.

***Ədəbiyyat tarixinin "ədəbi əlaqələr" deyilən çox mühüm bir bölməsi var və bu baxımdan da Maqsud Hacıyevin xidmətləri danılmazdır. O, bir məqaləsində "Arşın mal alan" operettasının İran səhnəsində oynanılmasından söz açır, başqa bir məqaləsində isə Azərbaycan nağıllarının Tehran çapı barəsində müfəssəl məlumat verir.***

### *Bir yazısında*

isə nakam yazıçı Səməd Behrəngini bizi oXUCULARA tanıdır. Burada vacib bir faktı oxuculara çatdırmaq istəyirəm. .Maqsud Hajıyev bu səksən beş illik ömrünün on beş ilini İranda və Əfqanıstanda keçirib. Əlbəttə, sovet dönəmində İran və Əfqanıstanla bağlı bir çox həqiqətlər bizə məlum deyildi. Biz Şərqin bu iki böyük ölkəsinin müasir durumu, ijtimai-siyasi vəziyyəti və həmin ölkələrdə baş verən olaylar haqqında yalnız sovet ideologiyasının təbirinjə olan məlumatlardan xəbər tuturduq.

### *Maqsud Hacıyev*

***ilk azərbaycanlı alim və diplomatlarından biri idi ki, keçən əsrin 70-80-ci illərində Əfqanıstanda və İranda gördükləri barədə bir sıra həqiqətləri oxuculara çatdırdı. Vaxtilə "Azərbaycan" curnalında çap olunan "Beş il qonşu diyarda" publisistik yazısı oxucuların rəğbətini qazandı. 1985-ci ildə Maqsud müəllimin yenə həmin curnalda "Dörd ildə gördüklərim" adlı başqa bir yazısı da işıq üzü gördü və bu yazı da böyük maraqla qarşılandı. Nə idi bu yazıları oxuculara sevdirən?***

Birincisi; Maqsud Hacıyev həm İran, həm də Fəqanıstan əhli kimi çıxış edirdi. Ona görə də hər iki yazıda mümkün qədər siyasi məsələlərə toxunulmurdu. İkincisi; həmin yazılarda Azərbaycan-İran-Əfqanıstan xalqlarının tarixən birbirinə yaxın xalqlar olduğu, bu səbəbdən də xalqlar arasındakı dil, mədəniyyət, etnoqrafiya, folklor paralelləri şərh edilirdi. Üçüncüsü, həm İranda, həm də Əfqanıstanda tarixən azərbaycanlılar yaşamışlar və indi də yaşayırlar. Onun yazdığına görə Əfqanıstanda 300 minə yaxın əfşarlar, yəni azərilər yaşayır. Azəri türkləri Nadir şah dövründə bu yerlərə köçürülmüşlər. Onlar əsasən Kabul yaxınlığındakı Yuxarı Əfşar, Aşağı Əfşar, Əfşartəpə və Nənəkçi kəndlərində yaşayır, ana dillərini də qoruyub saxlayırlar. Əfşarlar daha çox Təbriz və Marağa ləhcəsində danışırlar. Onlar Əfqanıstanın hər tərəfinə səpələnmişlər.

Maqsud müəllimin araşdırmalarında bizdə az qala unudulmuş, lakin bir sıra Şərq xalqlarında indi də yaşarılığını itirməyən adət-ənənələr haqqında çox maraqlı faktlarla qarşılaşırıq. Məsələn, vaxtilə bizdə kommunist ideologiyasının təsirilə qızla oğlanın toyu ərəfəsində, bəzən lap toya bir neçə saat qalmış 26-ların heykəlinin qarşısında (indiki Sahil bağında nə yaxşı ki, o heykəl uçuruldu) şəkil çəkdirmək az qala ənənəyə çevrilmişdi. İranda, Əfqanıstanda isə kəbindən qabaq oğlanı, qızı göndərirdilər babalarının, nənələrinin qəbrinin üstünə, cavanlar bu qəbirlərin torpağından götürərlər, ölənlərin ruhlarından xeyir-dua alarlar.

***Bu, əcdadların ruhuna sitayişdən gələn adət idi. Maqsud müəllim öz araşdırmaları ilə sübut edir ki, Azərbaycan xalqının əsrlərdən bəri yaşayıb gələn bir sıra adət-ənənələri var ki, onları heç bir yadelli xalq, heç bir istila və assimilyasiya bu xalqın ruhundan qopara bilmədi.***

### *Bu adət-ənənələri*

Şərq xalqlarının bir çoxunda da görə bilərik. Ərəblər Novruz ənənəsini-milli ruhun oyanması simvolunu heç cür aradan çıxara bilmədilər. Deyək ki, lap qədimlərdə-Novruz bayramı keçiriləndə süfrə üstündə "ş" hərfi ilə başlayan yeddi cür təam qoyulardı: şərbət, şəkər, şəkərbura, şorqoğalı və s. Ərəblər bunu aradan çıxarmağa çalışdılar, çünki süfrədə şərab da var idi. Ona görə ərəblər bunu yeddi "sin" elədilər: sarımsaq, sirkə, səbzi və s. Amma bircə şərabı götüorməkdən başqa heç nəyə nail ola bilmədilər.

Professor Maqsud Hacıyev təkcə Azərbaycanda deyil, bir sıra Şərq ölkələrində tanınır. Onun fars, dəri (əfqan) və rus dillərində neçə kitabı işıq üzü görüb. Əfqanıstanda yaşadığı illərdə "Cvəndun", "Milliyyəthaye bəradər", "Dusti", "Həqiqəte inqilabe Sair", "Pamir", "Ənis", İranda yaşadığı illərdə isə "Ettelaat", "Mərdom", "Peyame nevin", "Həftəgiye ketab" qəzet və curnallarında elmi və publisistik məqalələri çap olunmuşdur.

Əlbəttə, bir yubiley yazısında bu görkəmli alimin elmi-pedoqoci fəaliyyətini dolğunluğu ilə əks etdirmək qeyri-mümkündür. O, uzun müddət Milli Aviasiya Akademiyasında və Bakı Avrasiya Universitetində Şərq ədəbiyyatından və diplomatiya tarixindən mühazirələr oxumuşdur. Elə bu mühazirələrin mövzularına diqqət yetirsək, Maqsud Hacıyevin hərtərəfli biliyə malik bir ziyalı olduğu qənaətinə gələrik: "Diplomatik xidmətin əsasları", "Diplomatik etiket və nitq", "Diplomatik portret", "Beynəlxalq münasibətlər tarixi", "Beynəlxalq münasibətlər nəzəriyyəsi", Səfir və konsul hüquqları", "Beynəlxalq təşkilatların hüquqları" və s. Maqsud Haccyev Azərbaycan-tat Mədəniyyət Mərkəzinin sədri kimi də səmərəli işlər görüb. Məlumdur ki, Azərbaycanın şimal bölgəsində bir sıra xalqların nümayəndələri yaşayır və tatlar bu sırada önəmli yer tutur. M.Hacıyevin xeyli sayda elmi-publisistik yazıları tat dilinə həsr olunub və onun "Tat dilinin Qonaqkənd ləhcəsi" adlı sanballı bir monoqrafiyası da var. Maqsud Hacıyev həm də bədii yaradıcılıqla və tərcümə ilə məşğul olur və bu yaradıcılıq sahələri ötəri həvəsdən deyil, ürəkdən gələn bir tələbdir. "Bu, mənim həyatımdır" adlı bir sənədli povesti var ki, Maqsud müəllim ömrünün acılı-şirinli, enişli-yoxuşlu gnlərindən söz açır. Povestdə qırxıncı illərin bir Azərbaycan kəndindən, müəllifin o kənddə yaşayan əzizlərindən, doğmalarından danışılır.

Həmin povestdə bir sıra şeir parçaları da təqdim edilir və o şeirlərdə Maqsud müəllim Qonaqkəndin Gümür kəndini-doğulduğu kəndi çox təbii, səmimi bir dillə təsvir edir:

*Gümür adlı səfalı, buzbulaqlı kənd vardı,*
*Yayda yaylağı gözəl, qışda aləm olardı.*
*Dəyirmanı bircə an dayanmazdı il boyu,*
*Götürərdi başına yeddi dağı hər toyu.*
*Təndirində çörəyi küt getməzdi bu kəndin,*
*Tərifini deməyə söz yetməzdi bu kəndin.*
*Qadir Allahın kefi sarı simdə olanda,*
*Bir cənnət yaratmışdı Gümür adlı məkanda.*

**Bu yazıda biz onun çoxsaylı şeirlərindən, əhvalat və lətifələrindən, tərcümələrindən (rus, fars və əfqanca) söhbət aça bilmədik. Bir sözlə, çoxcəhətli yaradıcılığa malikdir və səksən beş yaşlı bu qocaman alimə, şair və publisistə, cansağlığı, könül xoşluğu, daha gözəl günlər arzulayırıq.**

# MUSİQİ RUHUNDAN DOĞAN ÜMİD

**İrfan elmi dairələrində belə bir fikir mövcuddur ki, musiqi insandan öncə və sonra var olan təbiət fenomenidir. Bəstəkarlar isə kainatdakı səsləri duya və ustalıqla nota yaza bilən Tanrı tərəfindən seçilmiş fövqəlbəşərlərdir. Lakin bizim dünyamızda musiqi, musiqi yaradıcılığı sisteminin mühüm tərkib hissəsi olan, ifaları ilə əsərə daha böyük duyğusallıq, həssaslıq, canlılıq, anlaşıqlılıq, bədii tərtibat və obyektiv gerçəkliyi tanımağın yeni yollarını aşılayan ifaçı-musiqiçilər sayəsində yaşayır.**



### *Belə musiqiçi və ifaçılardan*

biri də otuz ildən artıq fortepiano ifaçılıq sənətinin klassik ənənələrini qoruyan Bakı Xoreoqrafiya Akademiyasının müəllimi və pianoçu-konsertmeyster Sevda xanım Axundovadır.

O, Bülbül adına orta ixtisas musiqi məktəbində təhsil alıb, oranı fərqlənmə attestatı ilə bitirdikdən sonra, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında ali təhsil almış, Əməkdar incəsənət xadimi, professor Fəridə Quliyevanın sinfini fərqlənmə diplomu ilə bitirmişdir. Burada konsertmeyster ustalığını görkəmli pedaqoq Nailə İbrahimovadan, kamera ansamblı ifaçılığını isə Xalq artisti Tofiq Bakıxanovdan öyrənmişdir. Konservatoriyada təhsil aldığı müddətdə respublikanın və SSRİ-nin bir çox rayon və şəhərlərində qastrol səfərlərində olmuş, solo, duet və ansambl ifaları ilə çıxış etmişdir.

### *Konservatoriyanı bitirdikdən sonra*

***təyinatla Əli-Bayramlı şəhər musiqi məktəbində müəllim kimi əmək fəaliyyətinə başlamışdır. Sevda xanım 1988-ci ildən Bakı Xoreoqrafiya Məktəbində (indiki Bakı Xoreoqrafiya Akademiyasında) müəllım-konsertmeyster vəzifəsində çalışır.***

Sevda xanım öz yaradıcılıq yolu və ifaçılıq ustalığından əlavə, ifasının obyekti və predmetində ehtiva olunan vacib spesifikliklə fərqlənir. O, peşəkar ifaçılıq və ümumiyyətlə, konsertmeyster sənətinin universal tələbləri baxımından son dərəcə çətin və məsuliyyətli olan klassik rəqsin musiqi müşayiətini gerçəkləşdirir. Bundan əlavə, Sevda xanımın, Azərbaycan baletinin dünya şöhrətli priması, SSRİ Xalq artisti Leyla Vekilova ilə uzunmüddətli işbirliyi onun təbii və peşəkar keyfiyyətlərinin inkişafına, onun ifaçılıq məharətinin təkmilləşməsinə və yaradıcılıq yüksəlişinə xidmət etmişdir.

### *Leyla Vəkilova ilə işlədiyi müddət ərzində*

***Sevda xanım müxtəlif baletlərin orkestr partiyalarından fortepiano üçün işləmələr və çoxsaylı not köçürmələri həyata keçirmişdir. Ayrıca olaraq, Sevda xanım SSRİ Xalq Artisti Qəmər Almaszadə, Azərbaycan Respublikasının Xalq artisi Xumar Zülfüqarova, Əməkdar artistlər Ramazan Arifulin, Tamilla Məmmədova və xoreoqrafiya sənətinin digər görkəmli xadimləri ilə uğurla işləyərək, nəinki klassik, həm də xalq səhnə, tarixi-məişət və Azərbaycan rəqslərini mahircəsinə müşayiət etmişdir. Adları çəkilən müəllimlər onun ifa bacarığını və musiqi müşayiətindəki nailiyyətlərini yüksək qiymətləndirmişlər. Qeyd etmək lazımdır ki, hər hansı bir görkəmli konsertmeyster rəqsi düzgün şəkildə müşayiət etmək iqtidarına malik deyil. Lakin rəqs sinifində çalışan peşəkar konsertmeyter xoreoqrafla yanaşı bərabər hüquqlu rəqs müəllimi hesab edilir.***

Sevindirici haldır ki, Sevda xanımın bu cür nailiyyətləri nəzərdən qaçmamışdır. 2009-cu ildə o, Bakı Xoreoqrafiya Məktəbinin 80-illik yubileyi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Sevda Axundova Bakı Xoreoqrafiya Akademiyasında fortepiano ixtisasının tədrisi ilə də məşğuldur. Eyni zamanda iyirmi beş ildən artıq Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) də müəllim işləmişdir. Burada fortepiano üzrə ixtisas fənnini tədris etmişdir. Sevda Axundovanın bu ixtisas üzrə təhsil alan tələbələri beynəlxalq festivallarda fəal iştirak etmiş və müvəffəqiyyət qazanmışdır. ADMİU-da ilk dəfə olaraq Əməkdar elm xadimi, professor Timuçin Əfəndiyevin rəhbərliyi, Azərbaycan Respublikasının Əməkdar artisti Zakir Ağayevin təşəbbüsü ilə Xoreoqrafiya sənəti kafedrası təşkil olunandan sonra Sevda Axundova burada iyirmi il ərzində "balet klavirinin analizi" fənnini, bir müddət sonra isə yeni açılmış Musiqi sənəti fakültəsində fortepiano fənnini paralel olaraq tədris etmişdir.

O, 2000-2015-ci illərdə İGMİD (Rəqqas və Musiqiçilərin Beynəlxalq Gildiyası) (Stokholm) cəmiyyətinin üzvü olmuşdur. S.Axundova 2012-ci ildə Kiyev şəhərində "Şərqi Avropada təhsil almış tələbə - məzunlar" ictimai birliyi tərəfindən təşkil olunmuş tədbirdə konsert proqramı ilə çıxış etmiş və həmin ictimai birliyin təşkil etdiyi müxtəlif xeyriyyə tədbirlərində fəal iştirak etmişdir.

### *2014-cü ildə*

mədəniyyət və musiqi sahəsində xidmətlərimə görə "Şərqi Avropada təhsil almış tələbə - məzunlar" ictimai birliyi tərəfindən fəxri fərmana layiq görülmüşdür. Habelə, Polşa və Macarıstanda keçirilən beynəlxalq musiqi müsabiqəsində S. Axundovanın tələbələri müxtəlif qalib yerlərin laureatları olmuş və o, həmin müsabiqələr çərçivəsində Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert proqramları ilə çıxış edərək, hər ikisində "Müsabiqənin ən yaxşı müəllimi" adına layiq görülmüşdür.

***2016-cı ildə S. Axundova Qəmər Almaszadə adına Klassik və Milli Rəqs üzrə I Beynəlxalq müsabiqədə iştirak etmiş, müsabiqə zamanı Rimski-Kirsakovun "İspan kapriççiosu"***



***fraqmentlərini və moldavan xalq rəqsini fortepiano üçün işləyərək, səhnədə təqdim olunan rəqs canlı olaraq müşayiət etmişdir.***

Konsert fəaliyyəti Sevda xanımın həyat və yaradıcılığının ayrı bir səhifəsidir. Hər hansı bir konsert - görülən işlər barədə bir növ hesabatdır və bu cür "hesabatlarla" Sevda xanım tez-tez çıxış edir.

Eyni zamanda dünyanın müxtəlif ölkələrində konsert proqramları, müəllif konsertləri təşkil edərək, o, vətənimiz Azərbnaycanı layiqincə təmsil etmişdir.

***2019-cu ildə Bakı Xoreoqrafiya Akademiyasının 90 illik yubileyi çərçivəsində Sevda Axundovanın təşkilatçılığı ilə keçirilən konsertdə onun bakalavriat səviyyəsində təhsil alan tələbələri Azərbaycan bəstəkarlarının balet musiqisindən ibarət geniş proqramla çıxış etmiş, bununla da xoreoqrafiya sahəsində fortepiano ifaçılığı üzrə yeni uğura imza atmışlar. Bu gün Sevda xanım böyük məmnunluq hissi ilə Bakı Xoreoqrafiya Akademiyasında işləyərkən həm biliklərini, həm də illər boyunca topladığı təcrübəsini şagird və tələbələrinə ötürür. Həm orta, həm də ali təhsil pilləsində "fortepiano" fənnini tədris edən Sevda xanım, şagird və tələbələrinə təkcə ifaçılığı deyil, həm də ətraf mühiti hiss etməyi, onu düzgün qavramağı və dərk etməyi də öyrətməyə çalışır.***

O, tələbələrinə təbii potensiallarının dərinliklərinə, yaradıcılıqlarına diqqət yetirməyi və tamaşaçıları hiss etməyi öyrənmək imkanı yaradır. Sevda xanım əmindir ki, məhz bu üsulla peşəkarlıq yoluna qədəm qoymaq mümkündür.

Bu gün Sevda xanım Axundovanı həqiqətən ən yaxşı fortepiano müəllimlərindən və müasir dövrümüzün ən nadir müəllim-konsertmeysterlərindən biri adlandıra bilərik.

Sənət, elm, eləcə də ədəbiyyatın müxtəlif sahələrindəki dərin biliyi, yüksək əxlaqi keyfiyyətlər və mənəviyyat, zəngin iş təcrübəsi Sevda xanımın iştirakı ilə hər bir dərsi daha da məzmunlu edir.

Sevda xanım Axundovanın fəaliyyətini təhlil edərkən, bir daha əmin oluruq ki, onun missiyası yüksək keyfiyyətli musiqi ifa etmək, gənc nəslə düzgün ifa etməyi öyrətmək və bununla da Azərbaycan fortepiano ifaçılıq sənətinin ənənələrini qorumaqdır.

**Musiqi həyat və kainatı dərk etməyin vasitələrindən biri və birincisidir, bu səbəbdən musiqi ifaçıları öz ifaları ilə musiqi ruhundan doğan ümidin bələdçiləridir.**

**Əbülfəz Babazadə,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# "Göyçədə doğulan sonuncu körpə öləndə..."

*Həmsöhbətimiz gənc yazar Şəfa Vəlidir.*

**-Öz aramızda sənə "Düyməcik" deyirdik. Bu düyməcik son dönəmlər nə işlə məşğuldu? Üzünü görə bilmirik.**

-Son zamanlar da elə həmişəki kimi yazmaq eşqimə boyun əyib, oxumağa vəfa göstərməklə məşğulam. Uzun illər "ədəbiyyat nədir?" sualına verilən minlərlə cavab çıxıb qarşıma; bir yazıçının əsərində, bir şairin müsahibəsində, yaxud adicə feysbuk statuslarında. Təbii ki, ədəbiyyata könül verən biri kimi bu cavabların hər biri məni düşündürüb; gah məyusluğa uğradıb, gah da gülümsədib. 2019-cu ildə qərara aldım ki, bu düşüncələrimi masa başında saatlarla sürəcək ədəbi mübahisələrə çevirməkdənsə, elə çiyinlərini söykədiyi cavablarla birgə yazmaq daha yaxşı olar. Beləcə, "Ədəbiyyatla bağlı kim nə düşünür?" adlı silsilə esselər yazmağa başladım. Artıq iki esse "525-ci qəzet"də işıq üzü görüb. Bundan əlavə, "Düşüncə döngələri" adlı daha bir silsilə yazılarım var ki, bunlar da ovqat, təəssürat yazıları sayıla bilər. "Çardaqda yaşayan qarı" adlı nəsr əsərimi də ötən il başlamışam, hələ bitirməmişəm. Ümid edirəm ki, bu il bitər. Məlum, virus, epidemiya, karantin... Və mütəxəssislərin dediyinə görə, karantinin yaratdığı "dünyəvi depressiya" yazı adamlarını da düşüncədən-düşüncəyə, kədərdən-kədərə sürüklədi. "Epidemiyada darıxan qoca" hekayəsi və "Hekayəmiz bitirmi?" essesi həmin kədərin söylədikləridi... Son iki ildə Tural Sahabın "Türkan" və "Canavar ovu" romanlarının, Mehman Rasimoğlunun bir şeir kitabının redaktoru olmuşam. Yaxında işıq üzü görəcək bir kitabın-Şahanə Müşfiqin "Hərənin öz romanı" kitabının redaktəsini yekunlaşdırmaq üzrəyəm. Tərtibatı üzərində işlədiyim iki kitab var, bu haqda hələ danışmaq tez olar.

### *Mənə "düşmən" deyənlərin də uğurları gözəllikdir*

**-Çox az gənclərdənsən ki, yaşıdlarının uğurlarına sevinir, çoxu haqqında az qala yazı ilə çıxış edirsən.**

-Rəsmi gənclik yaşına görə, artıq ahıllaşırıq *(gülür)*. Uğura sevinməksə... Ürəkdən gəlir bəlkə? Bilmirəm... Sizcə də, sevinmək gözəl deyilmi? İnsan oğlu Tanrının axtarışına çıxdığının tarixini unudub, indən belə də bu tarix haqqında nə yazsa, yalan çıxır. Məncə, Tanrı onun bizə verdiyi hər gözəllikdədir və bu gözəlliyin əsasında da sevgi durur. Bütün müqəddəs kitablar "Tanrı sevgidir" deyir, mifologiya "kainata sevgi göndərin, xoşbəxt olun" deyir... Sevinc kəlməsi Sevgi kəlməsindən törəyib. Dostlarımın, nəinki, dostlarımın, mənə "düşmən" deyənlərin də uğurları gözəllikdir; gözəllik sevgiyə layiqdir, sevgi isə bizi sevindirir... Bu yaxında yazıçı Varisin bir yazısı vardı. Mən görməsəm də, Varis az-çox xarici ölkələrin ədəbi mühitlərini görüb. O, yazmışdı ki: "Xaricdə yazıçı həmrəyliyi deyilən bir məfhum var". Necə xoşladım bu deyimi, bir bilsəniz...O gün-bu gündür həmin həmrəyliyin bizdə-bir ovuc mühitimizdə də olmasını arzu etməkdəyəm...

**- Elə mənim yaradıcılığım haqqında da 4 yazı yazmısan. Belə getsə, kitab olacaq.**

-Bəlkə də oldu... Biz hamımız özümüzü ədəbi mühit deyilən qazanın içində, hətta, ən birinci süfrəyə gələcək olan payda-çömçədə hiss edirik. Bu, çox gözəldi. Amma hərdən xəyal gücümüzü işə salıb özümüzü bu qazanın kənarında təsəvvür etsək, bir də ilk çömçədən pay gözləyən kimi bu qazana boylansaq, olmazmı? Mən bunu çox edirəm. İnanın, kənardan baxanda qazanın içi daha təfərrüatıyla görünür. "Ramil Əhmədin "Uşaqlar" şeiri, Vəfa Mürsəlqızının "Sonsuz son" və Emin Pirinin "Boşanmış qadın" şeiri ilə birlikdə "üç müşketyor" kimi cəmiyyətin qınaq düşüncəsinə; "Kardinal Rişelye"yə meydan oxuyur desəm, fikrimi olduğu kimi çatdırmış olaram". -bu kimi qənaətlərimin çoxuna qazandan kənarda gəlmişəm...

**-Hələ də "ananın boyat dərdi" ilə ovunursan? Bəlkə bütün bədbəxtçiliklərimizin səbəbi dərdlərimizin, yaralarımızın boyatlamasıdır. Halbuki, o yaralar qasnağlamamalı, irinləməli idi ki, nəsə edək...**

- Adətən, hansısa bir müsabiqəyə, yarışmaya qatılmaq müəyyən tələblərə cavab verməklə mümkün olur. Müəllif özünü tələblər siyahısının qarşısında durmağa məcbur edirsə, artıq mətninə uduzmuş olur. Ülvi Bünyadzadə bizim göyçəlimizdi, eyni rayona baxıb kəndlərimiz, eyni yolu gedib babalarımız yaylaqdan-qışlağa, qışlaqdan-yaylağa... Ülvinin adıyla müsabiqə görəndə bir az qəhərlənmişdim. Anamın "boyat dərdi" isə neçə müddətiydi gülüşümü kəm qoyurdu. Bir yandan da MRT növbələri, xəstəxanaların gözləmə zalları, həkimlərin: "Bilirsən, Şəfa..." ilə başlayan cümlələri vardı qəhərimdə... Bir də gördüm hamısı üst-üstə yığılıb, esse olub... Göndərdim müsabiqəyə. Özüm də bilirdim ki, tələbnamə ilə nəsə yaza bilmirəm, yer tutacağından da əmin deyildim. Ta ki, siz muştuluqlayanadək... Qaldı ovunmağa, mən buna ovunmaq deməzdim... Unudulmaq deyərdim...Göyçədə doğulan son körpələr mənim yaşıdımdı, hamısının da canında qaçaqaçın ağrıları. İnsan ağrılarına yeniləndə ədəbiyyat yaddan çıxır... Məndən altı ay balaca olanlar üçün Göyçə tamam yad anlamdı. Daha söz deyə bilmirəm bu haqda... Deyəcəyim o ki, Göyçədə doğu-



lan sonuncu körpə öləndə Göyçə adlı yaraların son qaysağı qopacaq və o yaraların yeri sağalsa da, yara yerinin ləkəsi həmişəlik qalacaq...

### *Günah bizə Adəmdən miras qalıb*

**- "Əzilib öpməkçün ləpirlərindən**
**Günah tanımayan uşaq gəzirəm"...O uşağı tapa bildin?**

-Yox... Günah bizə Adəmdən miras qalıb və biz günahla doğuluruq. Öz günahlarımın içində çabalayarkən batmamaq üçün o sonuncu ümiddən yapışıram; ki, nə vaxtsa, günah tanımayan o körpə doğulacaq... Nə vaxtsa... Bizsə, sadəcə, arzulayırıq. Bu arada, dünən Edqar Allan Ponun "Dörd heyvan bir yerdə: insan-zürafə" adlı hekayəsini oxudum, marağımı bir şey çəkdi. Demək, Po, hekayəsində istehzayla kralı mədh edərkən onun başına "Şairlərin tacı"nın qoyulduğunu, onun "Şairlərin şahzadəsi" olduğunu deyir. Burda şair artıq kahindir. Bəlkə, mən də bu misralarla kahinəlik etmişəm?!

**-Ayrılıq baş qatmaqdırsa, sevgi-bərabərlik nədir? Boşluq, ətalət?**

- O qədər insana lazım olan hisslər var ki... Cəsarət, ləyaqət, dəyanət, vüqar (sonradan adını "qürur" qoysaq da)... Ən əsası isə sevdiyimiz, "sevirəm" dediyimiz insanı olduğu kimi qəbul etməyimizdir... Bunun da iki yolu var: ya gözümüzdəki sevda pərdəsini heç zaman açmamaq, ya da ki, o pərdəni biryolluq açıb atmaq... Hər ikisi insandan ömür istəyir... Cəsarətlə xərclənəcək, uğruna fəda ediləcək bir ömür... Kim bilir, bəlkə də insan ömrü elə bu sevgi adlı məfhumdan süzülür yağış damlaları kimi? Hər halda, məntiqli, ya məntiqsiz, bilinən o ki, SEVGİ özü bir fəlsəfədir... Kim necə sevirsə, ona elə o cür də yanaşır...

**- Müasir dövrdə az qala əksəriyyətin şeir yazdığı bir ölkədə Şəfanın yazmasına ehtiyac varmı? Özünə bu sualı vermisən?**

-Çox... Bu yaxında anamla danışırdım. Dedi ki, Şəfa, bu gün indiyədək bütün yazıb-oxuduqlarım birdən-birə mənə elə mənasız gəldi ki... Bircə sual verdim anama: "Anam, hələ indimi?" Bir haşiyə çıxım, anam "İlham" ədəbi birliyinin yetirməsi olub, "Aşıq Pəri" məclisinin ilk üzvlərindən olub, mühitdən uzaq düşsə də, həmişə qələmi-kağızı əlində, şeiri, bayatısı, nağılı dilində olub...

Yəni, anamın altmış yaşdan sonra yazdıqlarının onunçün mənasızlaşması mənə qəribə gəldi. Yarı yaşındayam anamın, "niyə yazıram ki?" sualı ilə baş-başa qaldığım çox olub.

Bəlkə də, çox yox, uzağı, on ilə adım ancaq saralmış qəzet səhifələrində, cildi bərq vuran antologiyalarda qalacaq... Yenə də yazmaqdan qaçmaq olmur. Günlərlə kompyuterə,kağıza, qələmə yaxın getmirəm, beynimdəkiləri açıq pəncərədən görünən şam ağacına, çay içdiyim fincana söyləyirəm. Bir də ayılıram ki, hansısa mətnin son nöqtəsini qoymuşam. Yazmaq eşqdi... Eşq qarşısında insan acizdi...

**-II Gənc Ədiblər Məktəbində olmusan. Sən də fəallardan olmusan. Hər görüşə Gəncədən gəlirdin.**

-Ən gözəl xatirələrimdəndi o yollar. Bir dəfə Gəncədə, şəhərarası avtobusdaydım. Üzümü pəncərəyə söykəyib yol kənarındakı çinarlara baxırdım.

Birdən qulağım "Şəfa" sözünü çaldı. Başımı qaldırıb ətrafıma baxdım, yaxınlıqda iki məktəbli oğlan dayanmışdı. Biri o birinə deyirdi: "Hə, hə...Şəfa Vəli...Oxudum o şeirləri mən də. Düz deyirsən, nətəər həll edib e Gəncə-Bakı söhbətini..." O birisi də başladı şeirimdən misal çəkməyə... Zənnlə üzlərinə baxdım, məni tanımırdılar. Amma "şeirlərində Gəncə-Bakı söhbətini həll eləyən şair" obrazı çox xoşuma gəlmişdi. Bax, həmin şeirlər Gənc Ədiblər Məktəbinə gəlib-getdiyim zaman yollarda, avtovağzallarda yazılıb...

**-O qədər mehribançılıqdan sonra gənc ədiblər bir-birindən ayrı düşdü. Hətta ədəbi düşmən görənlər oldu bir-birini. Məni başa düşdük, ulduz xəstəliyinə tutulmuşdum. Bəs, sizə nə oldu?**

-Mənə heç nə olmayıb...(gülür) Bir azca qocalmışam, vəssalam. Gülnar Səmayla hələ ədəbi müzakirələrimiz davam edir, bəzən saatlarla ədəbi mübahisələr də edirik, sonra da baş-başa verib bitki çayı içə-içə Gənc Ədiblər Məktəbini xatırlayırıq. Şahanə Müşfiqlə hərdən xatirələrimizi yazırıq birbirimizə... Ümumiyyətlə, Gənc Ədiblər Məktəbi mənə çox şey öyrətdi...Heç unutmuram, İlqar Fəhmi ilə olan görüşdəydik. İlqar bəy dedi ki: "Əvvəlcə çörəyi hardan qazanacağınızı fikirləşin, sonra yaxşı əsər yazmağı". İradə Tuncayla olan görüşdən sonra da siz koordinator kimi bizi qəşəng danlamışdınız... Qəşəm Nəcəfzadəylə olan görüşdə Qəşəm müəllimin "səslərin təkrarı" ilə bağlı məsləhətləri də qeyri-adi idi. Fərqanə Mehdiyeva ilə olan görüşə isə gələ bilməmişdim... İ

şdən icazə verilməmişdi. Xoş xatirələrim var Gənc Ədiblər Məktəbi ilə bağlı. Xoş olan heç nə aradan illər keçsə də, "düşmən" sözünü yaxına buraxmır. Uzağı, "rəqib" sözünü qəbul edərəm, məhşur deyimdəki kimi, "rəqabət inkişafdır". Bir də, "Yazarların yazmadıqları" kitabında toplanılan hadisələrin əksəriyyəti məhz Gənc Ədiblər Məktəbi ilə bağlıdır.

**- Bəlkə Rəşad Məcidə deyək "bu dəcəl uşaqları" yenidən bir yerə yığsın?**

-Rəşad müəllim də sevinər biz toplu halda həmişə açıq olan qapısından içəri boylansaq... Bir gün o da olar! Ümid eləmək də gözəldi.

Sərdar Aminin "Su sərgisi" romanında, təxminən, belə bir fikir var: "Xəyal qurmaq Allaha öz imkanlarını xatırlatmaqdır".

**- Şeirlərini oxuyuram, sanki uşaq, körpə saflığı var deyimlərdə. Həm də bunlar süni deyil, təbii alınıb.**

-Bunu sizdən eşitmək xoş oldu. Vladimir Nabokovun "Gənc şair V.Ş." hekayəsində bir məqam var. Nabokovla görüşə gələn gənc şair özünü təqdim etməzdən əvvəl şeir dəftərini çıxarır, masaya qoyur və deyir: "Hökumət idarəsində mən öz pasportumu göstərdim, lakin sizə şəxsiyyətimi təsdiq etmək üçün yalnız bunu, şeir dəftərimi təqdim edə bilərəm."

**Söhbətləşdi:**
**Emin Piri**

### *Türk Hava Yolları bütün biletlərə cərimsiz dəyişiklik haqqı verir*

***Türk Hava Yolları 31 dekabr 2020-ci ilədək alınacaq olan bütün biletləri ödənişsiz dəyişdirmək mümkün olacaq.***

***Şirkətdən verilən məlumata görə, mövcud qlobal pandemiya ilə əlaqədar sərnişinlərin məmnuniyyəti üçün Türk Hava Yolları bilet qaydalarında yeni dəyişiklik edib.***

***Yeni qaydaya uyğun olaraq, 21 Mart 2020- ci il tarixindən bu yana alınan və 31 Dekabr 2020-ci il tarixinədək yazılacaq olan bütün biletlərdə məhdudiyyətsiz tarix dəyişikliyi etmək pulsuz olacaqdır. Biletin ödənişsiz dəyişikliyi üçün sərnişinlər original biletlərindəki ilk uçuş tarixindən əvvəl bilet rezervasiyasında yer alan bütün uçuşları ləğv etməli, yeni tarix müəyyən etməlidir. Bu şəkildə biletə ediləcək limitsiz dəyişikliklər ödənişsizdir. Yəni, bilet dəyişikliyi üçün heç bir cərimə alınmayacaq. Qeyd etmək lazımdır ki, bilet dəyişikliyi zamanı ortaya çıxacaq digər ödənişlər (valyuta fərqi, sinif, və istiqamət dəyişikliklərindən ortaya çıxacaq ehtimal fərqlər, vergi fərqləri və s.) sərnişin tərəfindən ödənilməlidir. Tətbiq olunacaq yeni qaydaya uyğun olaraq sərnişin yeni səyahət tarixinə qərar verməyibsə, biletini açığa ala bilər. Başqa sözlə desək, yeni səyahət tarixi seçənədək düşünə bilər. Lakin bunun üçün də mütləq uçuş tarixindən əvvəl bilet rezervasiyasında yer alan bütün uçuşlar ləğv edilməlidir. Müəyyən ediləcək yeni səyahət 31 dekabr 2021 tarixinə qədər tamamlanmış olmalıdır. Biletlərin keçərliliyi 31 dekabr 2021 tarixinə qədər uzadıla bilər.***

***1933-ci ildə yaradılmış və həmin vaxt beş təyyarədən ibarət olan "Türk Hava Yolları" aviaşirkəti hazırda "Star Alliance" beynəlxalq alyansın üzvüdür və bütün dünyada 319 istiqamət üzrə uçuşlar yerinə yetirən (269 beynəlxalq və 50 daxili) və 361 (sərnişin və yük) avialaynerdən ibarət olan 4-ulduzlu aviaşirkətdir. "Türk Hava Yolları" aviaşirkəti barədə daha ətraflı məlumatla https://www.turkishairlines.com saytında, eləcə də "Facebook", "Twitter", "Youtube", "Linkedin" və "Instagram" səhifələrində əldə edə bilərsiniz.***



**Fidan Nizaməddinqızı,**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, dosent**

# BİR TİKƏ ASFALT

**Deputat seçkilərində rayonumuza və kəndimizə xeyli qonaqlar gəlib, gedirdi. Seçiləcək namizədlər rayonun bütün kəndlərini, qəsəbələrini gəzirdi. Açığı bizim kəndə gələcəklərinə inanmırdım. Dağın ətəyində, yanlız bir maşın cığırından ibarət yolu olan, qazdan, istilikdən xəbərsiz bir kəndə qışın bu çağında nə üçün gəlməli idin.**

Kənd camaatının dediyinə görə yeni seçiləcək deputat ötən illərdəki namizədlərdən çox riskli görünürdü. Xeyli vədlər verirdi. Əvvəlcə məktəbdə toplaşmaq istədilər. Lakin məktəb soyuq olduğundan, nə uşaqlar vardı, nə də müəllimlər. Nəhayət qərara alındı ki, mağazanın yanında kiçik meydançada toplaşsınlar. Çünki, mağazanın qapsında kəndin kişlərinə rast gəlmək olurdu. Onu da deyim ki, kəndimizin bütün yükü bu kişilərin çiyinlərində idi.

### *Cavanların hamısı*

***Rusiya bazarlarında işləyirdi. Mağazadan bir az aralıda isə bulaq vardı. Qadınlar su aparmaq üçün daima bura gəlirdilər. Elə deputat seçiləcək namizədlərə də bu lazım idi. Çünki, belə ucqar kənd yerlərində eyni zamanda, qadınları və kişiləri bir yerə yığmaq müşkül məsələdir. Həmin gün anamın sevincinin həddi hüdudu yox idi.***

Anam əlindəki saxsı səhəngi boşaldıb, yenidən bulağa su bəhanəsi ilə namizədin verdiyi vədləri dinləməyə getdi, mən bacımla isti peçin yanında oturub oynayırdıq. Bacım yaman ağlayırdı. Anam onu qoyub heç yana gedə bilmirdi. Elə hey ağlayırdı. Namizəd isə qadınların ürəyini ələ almaq üçün kəndimizdə doğum evi tiktirəcəyinə, ən əsası isə kəndin yoluna asfalt döşəyəcəkdi ağızdolusu danışaraq, söz verirdi. Hamı xoşbəxtcəsinə imza atırdı. Kəndə yad traktor,və ya tikinti işçiləri, ya da maşın gələn kimi elə bilirdilər yol çəkməyə, yaxud doğum evi tikməyə gəliblər. Hər dəfə də ümidləri boşa çıxırdı, yazıq kəndlilərin. Artıq bir neçə il keçmişdi. Kənd camaatı deputatı yanlız televizordan, mavi ekrandan görürdülər. Kimisi arzusunu, kimisi tənəsini, kimisi də, qarğışını tökürdü deputata. Axı bu neçə ildə bircə dəfə də olsun gəlib baş çəkməmişdi. Yenə növbəti qış idi. Bir gün yan otaqdan anamın ahı-ufunu eşitdim. Anam çox möhkəm qadın idi. Adi ağrıdan zarımazdı. Yuxu boyu anamın qırıqqırıq səsi qulqıma gəlsədə ayıla bilmirdim. Bütün günü o qədər iş görürdüm, yatanda ölü kimi yatırdım. Atam odunları qırıb, ən yüngülünü qoltuğuna vurub gətirib özünü arvadına tərifləyirdi, məni odunların dalınca göndərib, özü anamın, odun üstündə buxarlanmış yeməklərdən yeyib, xumarlanıb yatırdı. Mən isə axşama kimi kəndin yuxarı əkin bağları adlanan yerindən odunları həyətə daşıyıb, doğrayırdım, səliqə ilə cərgələyib, ocağın yanına yığırdım. Sonra bacıma baxırdım, anam, ya çörək bişirərdi ya da bulaqdan su daşıyardı.

***Gecələr isə şam işığında dərslərmi yazırdım. Anamın səsi daha tez-tez və daha yaxın gəlməyə başladı. Ağrısını dişində sıxıb, məhəbbətlə məni ayıltmaq istəyirdi ki, mən yerimdən tik atıldım. Anam bacıma işarə edib dedi: Sevili sənə tapşırıram - dedi dərsə getmə hava soyuqdur. Bütün günübacına baxarsan, əynini geyindirib, əlinizə keçəni yeyərsiz. Mən xəstəxanaya gedirəm, gedirəm ki, sizə bacıdan, qardaşdan gətirim.Sən axı böyüksən, sən dərslərini rahat yazarsan.***

Mən təəcüblə anamın arxasınca baxa-baxa qaldım. Nə bacım, nə də mən səhərə kimi yatmadıq. Bacım anamı istəyirdi, mənsə onu sakitləşdirməyə çalışırdım. Güya ki, mən anamı istəmirdim?! Səhər saat altıya yaxınlaşırdı. Mən bacımı qalın geyindirib, anamın qalın şalı ilə kürəyimə sarıdım. Çəkmələrimi geyinib yola düzəldim. Mən rayona gedən yola sarı üz tutdum. Yolun yarısına kimi gəzə-gəzə gəldim. Düzü bir az qorxdum, bir az da ayaqlarımı don apardı. Yadıma atamın odun daşımağa gedərkən verdiyi məsləhətlər düşdü. Məni üşüyən görəndə atam deyirdi: "Əgər soyuq olsa qaç...həm evə tez çatacaqsan, həm də bədənin qızışacaq..." Mən qaçmağa başladım, bacım əvvəl şaqqanaq çəkib gülürdü. Yəqin elə bilib ki, onu qəsdən oynadıram. Sonra isə möhkəm yuxuya getdi. Axı bütün gecəni yatmamışdı.

***Xəstəxana düz kəndin çıxışında, yolun sonunda idi. havanın alatoranlığında xəstəxananın gur işıqları mənə elə sevinc bəxş etmişdi ki, elə bilirdim ki, binanın bütün pəncərələrindən anam boylanır. Xəstəxananın həyətinə çatan kimi anamı soruşdum: yolboyu özümə söz vermişdim ki, əgər yenə bacım olsa adını Gülər qoyacam. Qoy Sevil kimi ağlağan olmasın, gülsün. Qapıda dayanan qadın əli ilə yan pəncərəni göstərdi. Anam pəncərəyə sığınıb, için-için ağlayırdı. Ana necəsən, Sevil sən gedəndən ağlayır, onu sənin yanına gətirmişəm.***

### *Mən heç nə başa düşə bilmirdim*

Anam niyə ağlayırdı. Anamı heç vaxt ağlayan görməmişdim. Sevil başını çiynimə qoyub elə möhkəm yatmışdı ki, ayılmırdı. Anam atamı gözləməyimizi istəyirdi. Atam isə görünmürdü. Mən isə elə bilirdim ki, atam anamın yanındadır. Artıq səhər açılmışdır. Növbətçi qadın pəncərəni açdı. Qapının ağzına xeyli qadın, kişi əlində yemək işəri doluşdu. Mən bunu görüb Sevilin əlindən kökəni barmaqlarının arasından götürüb anama verdim. Birdən yadıma düşdü ki, axı anam gecə məni dürğuzanda demişdi ki, ya bacı gətirəcəm ya da qardaş, bəs nə oldu. Anam: bacı öldü, yolumuz cox uzaq düşdü, kələ kötür idi, cox silkələndim, eybi yox, deputat əmi yol çəkəndə, xəstəxana tikəndə bacın ya qardaşın olar. Bacımı bükdüyüm şalı bir az da özümə sıxıb, dəli kimi evə sarı qaçdım. Heç heyim qalmamışdı. Elə heyyy o deputatın dalınca danışırdım. Yolda qonşumuzun babasını gördüm. Xəstə atı, bir arabası vardı, uşaqlara durana kimi evə odun daşıyırdı. O, bizi də mindirdi. A bala, o uşağa soyuq olar. Qonşumuz uşağı kürəyimdən açıb, öz kürkünə büküb, arabaya qoydu. Atlara güc vurub, sürətlə kələ-kötür yolları keçirdik. Birdən arabanın tıqqıltısı kəsildi. Hamar, təxminən on addımlıq düz yol keçdik. Başımı arabanın əyri-üyrü təkərlərin arasından yola tərəf salladım. Tər-təmiz qapqara asvalt idi, amma niyə bu qədər az... baba bura kimin evidir?

**Həmin deputatındır. O vaxt gəlmişdi ha, mənzərədən xoşu gəlib, kəndin girəcəyində ev tikib. Qabağına da bir tikə asvalt tökübü, yola rahat cıxsın deyə. Mən elə heyy yol boyu düşündüm: axı hərənin qapısına bir tikə asvalt töksəydi yolumuz düzələ bilərdi.**

# ÖMRÜN QÜRUB ÇAĞI

## Qələndəri belə tanıdım...

**Onu 90-cı illərdən bəri tanıyırdım. Son illərdə "Azərbaycan" nəşriyyatında, Milli Elmlər Akademiyasının yeməkxanasında, "Elmlər Akademiyası" metrosunun qarşısında onunla görüşərdim. Bu görüşlər qısamüddətli olsa da, məndə dərin təəssürat yaradardı, tanımağa başlamışdım onu. Mən həmişə çalışıram ki, dostum, həmsöhbətim, həmkarım özü haqqında danışsın. Ona görə də Qələndərlə söhbət zamanı həyat yoldaşının pis mərəzə mübtəla olmasını, qardaşı Səməndərin silah götürüb torpaq uğrunda şəhid olmasını, qardaşının ailəsinin və övladlarının Qələndərə əmanət qalmasını, Yeni Günəşlidəki təmtəraqsız evində yaşamasını, "Həftə içi" qəzetinin redaksiyasında işləməsini (əvvəllər "Ədalət" qəzetinin cəfakeşi olmuşdu), nəhayət, bir neçə etibarlı dostunun və həmkarının olmasını öyrənmişdim. Vicdanlı jurnalistlərin az sayda olduğunu deyirdi.**

Qələndər Ağdamdan, Kolanı mahalından, Xaçınçaydan, onun zaman-zaman durula-durula axıb gedən saf suyundan, Kolanı igidlərindən, düşmənin vəhşiliyindən, ən çox şəhid vermiş Ağdam ellərindən və nəhayət, işğala məruz qalmış Qarabağdan, didərgin düşənlərin gectez yurd-yuvalarına qayıdacağından, daha nə bilim nələrdən danışırdı. Danışırdı və danışdıqca sübutlu-dəlilli sözləri bitib-tükənmək bilmirdi.

### *Mən onun söhbətlərindən doymurdum,*

çünki onun danışığı saf məntiqə, sağlam düşüncəyə, dünya kontekstində baş verən olaylara söykənirdi.

Bir dəfə yenə "Azərbaycan" nəşriyyatının birinci mərtəbəsində Qələndərlə görüşdüm. Əlində çanta vardı, qayğılı görünürdü. Elə bil harasa tələsirdi.

**- Dağlar oğlu, hara gedirsən?**

**- Qəzetin kompüterdə səhifələnməsi işini tamamlamışam. Elmlər Akademiyasının yeməkxanasında müxtəlif çeşidli xörəklər olur. Xüsusilə də orada bişirilən borşdan xoşlanıram. Orada birlikdə nahar etsək, yaxşı olar.**

Qələndər fikirli-fikirli dedi:

**- Axı birdən gecikərəm, çünki qəzetə material hazırlamalıyam. İstəmirəm kiminsə yanında üzükölgəli olum...**

**- Hansı mövzuda tapşırıq almısan?**

**- Rayon qəzetlərinin vəziyyəti barədə. Axı indi abunəçi, çap və yayım işi rayonlarda problemə dönüb.**

**- Bilirəm, - dedim.** "Kütləvi informasiya vasitələri haqqında" Qanun kölgədə qalıb. Bəziləri ya bu Qanundan xəbərsizdir, ya da bilirlər, əməl etmirlər. Çox şükür ki, yerli həyata daha çox yaxın olan rayon qəzetləri hələ çap olunur...

**- Gəlsənə növbəti yazını sizin "Lerik" qəzetinə həsr edək. Onsuz da rayon qəzetlərinin vəziyyəti eynidir...**

Razılaşdıq. O, bütün suallara cavab aldı. Çox keçmədi ki, "Həftə içi" qəzetində fotoşəklimlə bərabər, Qələndər Xaçınçaylının məndən aldığı müsahibə yarım səhifəyə yaxın həcmdə dərc olundu. Ən çox xoşuma gələn köklü problemlərin qaldırılması və rayon qəzetlərinin durumunun ümumiləşdirilməsi idi.

Və onu da qeyd edim ki, Qələndər Xaçınçaylı fərqli olaraq təmənnasız, yağsız-boyasız, qiymət verməyi bacaran vicdanlı və həqiqəti hər şeydən uca tutan jurnalist idi. O, "Tərəqqi" medalı ilə təltif edilmişdi. Prezident təqaüdçüsü, Azərbaycan Yazıçılar Birliyinin (AYB) və Azərbaycan Jurnalistlər Birliyinin (AJB) üzvü, media mükafatları laureatı idi. Əslində, Qələndər çoxdan "Əməkdar jurnalist" fəxri adına layiq olan bir qələm sahibi idi.

Bir dəfə mənimlə görüşərkən "Ömür mənalı keçəndə..." kitabını mənə uzadaraq dedi:

**- Ağdam Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri, musiqimizin hamisi Şahin Qasımova həsr eləmişəm. Vaxtın olanda oxuyarsan.**

Kitabı oxudum. Hər sətrində Qələndərin dəst-xəttini gördüm. Öyrəndim ki, Qələndər 11 kitab müəllifidir. Həm şairlik, həm yazıçılıq, həm müxbirlik asan gəlməsin sizə...

### *Bu bizim taleyimizdir*

Mən jurnalistlərin həyatı ilə bağlı xarici mətbuatı, kitabları, elə özümüzünküləri imkan daxilində oxumuşam. Cek Londonun "Martin İden" romanını dəfələrlə oxumuşam. Roman o qədər doğma, məhrəm təsir bağışlayır ki, sanki mənim kimi jurnalistlərin həyatı ilə həmahəngdir. Bu mənada, "Ədalət"çi



Əməkdar jurnalist Faiq Qismətoğlunun digər yazıları kimi, "Dünyanın ən əzabkeş adamı" oçerkini həyəcanla, lakin diqqətlə oxudum. Bilmədiklərimi də bu yazıdan öyrəndim. Qələndər Xaçınçaylının həyatının əzablı və oddan-közdən, yağışdan-borandan, ildırımlardan keçən mənalı ömür yolu qırmızı xətt kimi keçir, yaddaşımıza sancılır. Faiq Qismətoğlu yazısında deyir: "Mən çox əzabkeş, zəhmətkeş insan tanıyıram. Amma Qələndər Xaçınçaylı kimi əzabkeş və zəhmətkeş adam görməmişəm". Müəlliflə razılaşmamaq mümkün deyil. Qələndərin əzablı yollarla keçən ömrünün hansından danışasan?

***İstedadlı, vicdanlı, böyük hörmət və ürək sahibi olan şair-publisist Qələndər Xaçınçaylı ruhani dünyaya qovuşsa da, o bizimlə bərabər, yaddaşımızda, qəzet və kitabların saralmış vərəqlərində, onu yaşadanların xatirələrində həmişə canlıdır...***

Qələndər Xaçınçaylının zəif, yorğun-arğın bədəni, öz ağrısını-acısını, dərd-sərini unudub başqasının göz yaşını silən, çətin yoluna nur səpən, özgə kədərinə qalxan olan fikirləri, düşüncələri, iti qələmi, sözü-sehri ilə düşməni zəbun edən, xəyalən də olsa, Ağdama, Kolanı elinə qayıdan Qələndərin yeganə qəlb həmdəmi və dayağı olan Aqil Abbasa xəstəxanadan zəng edib "Əmoğlu, qoyma ölüm, axı məndə gözü olanları kim saxlayar?" deməsi...

**Eh, ay Qələndər, dünyanı titrədən taclı düşmən səni də yaxalayıb ağciyərlərini sıradan çıxartdı. Kim bilir, bəlkə, sən tapşırıqla getdiyin yerdə o namərd koronavirus sənin zərif, həssas vücuduna ləkə salaraq nəfəs almağa imkan vermədi, səni aramızdan apardı! Çox heyif!**

### *Ruhun Kolanı səmasında uçur*

Onunla görüşəndə nədən danışsaq da, söz gəlib Qarabağın işğalı, şəhid ruhlarının fəryadı, didərgin həyatı, beynəlxalq təşkilatların bu biabırçı işğala göz yumması, düşmənin azğınlığı, atəşkəs rejimini tez-tez pozması, təxribatçı hərəkətlərə rəvac verməsi və s. üzərində dayanırdı. Deyirdi ki: "Doğma kəndimizi tez-tez yuxularımda görürəm. Sanki şəhidlərin ruhu bizi köməyə çağırır. Bir səs mənə deyir ki, ata-babalarımızın məzarları, yurd torpaqları düşmən tapdağı altında inləyir, onların ruhu göylərə qalxaraq fəryad edir. Deyir ki, biz heç zaman düşmənə əyilmərik. Bəs bu qovğalar, satqınlar, qorxaqlar hardandı?" Qələmdaşların, ruh qardaşların Aqil Abbas, Əbülfət Mədətoğlu, Faiq Qismətoğlu, Babək Yusifoğlu, Lətif Süleymanov, Nazim Ağamirov, Vaqif İsaqoğlu, Vəli Xramçaylı, Surxay Əlibəyli səni xatırladıqca darıxacaqlar. Bu dünyaya sən baxan kimi baxıb təəccüblə, heyrətlə dolu baxışlarını xərcləyəcəklər... Deyirlər, ölüm ruhların bayramıdır. Ruhlar insanı yaşadır, ilahi dərgaha səcdə edir.

Sənin də ömrünün qürub çağı beləcə gəldi. Ruhumuz ruhunla görüşməyə gələcək...

**İdris Şükürlü**
**Əməkdar jurnalist**
**Lerik**

**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 102 (2136) 10 sentyabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# XANLIĞIN QAPISI

(əvvəli ötən sayımızda)

**Əgər biz onlara üz tutsaq, onda birmənalı şəkildə görərik ki, qalanın tikintisi ilə bağlı iki fikir var. Onlardan birinin iddiasına görə, qalanı Mehrəli xan, digər bir qisminin isə Pənah xan tərəfindən tikildiyini iddia edirlər. Məsələn, Rzaqulu bəy Mirzə Camal oğlunun "Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" əsərində göstərir ki, "mərhum İbrahim xanın yadigarlarından üçüncüsü hər iki Əsgəran qalasıdır. Bu qaları hicri 120**3, miladi 1786-cı ildə tikdirmişdir".

Digər tarixi Mirzə Vəli bəy Baharlı isə özünün "Əhvalati-Qarabağ" əsərində göstərir ki, "Pənah xan qalanı tamam edib və Pənahabad adı qoyub. Sonra yenə fikrə düşüb ki, qaladan bir neçə ağac aşağıda bir qalaça qoşundan ötrü təmir etsin. Belə ki, həmin Əsgəran adlanan qalaçaları ki, biri Qarqar çayının o tərəfində və birisi digər tərəfində təmir olub, həmin qalaçaları təmir elədi və bir cəm qoşun həmişə qalalarda durarmışlar".

Ümumiyyətlə, bizim tariximizin bir danışan dili olan Əsgəran qalası ilə bağlı tarixçilərin fikirlərinə diqqət yetirərkən onda Əhməd bəy Cavanşirin də fikirlərini diqqətə təqdim etmək zərurəti yaranır.

Əhməd bəy Cavanşir vurğulayır ki, "Mehrəli xan Qarabağ xanlığının idarəsini ələ aldıqdan sonra atasının vəsiyyətinə əsasən xanlığın daxili işlərilə məşğul olur; Şuşanın möhkəmləndirilməsini başa çatdırır, o zamanlar köçəri tayfaların qışladığı Şuşa ətrafındakı yerlərə basqın edən quldur dəstələrinin yolunu kəsmək üçün Əsgəran və Ağoğlan qalalarını tikdirir".

Bəli, bu faktı rus araşdırmaçı-tarixçisi Y.A.Paxomov da təsdiqləyir.

O da öz araşdırmalarının içərisində vurğulayır ki, "qala İbrahim xanın qardaşı və Pənah xanın oğlu Mehrəli xan tərəfindən hicri təqvimi ilə təqribən 1172-1174-cü illərdə, yəni miladi tarixi ilə 1750-1760-cı illər arasında tikilmişdi". Ümumiyyətlə, qalanın hansı xanın tərəfindən tikilməsinin mübahisəli olması və onun araşdırılması tarixçi alimlərin, arxeoloqların işidi.



Və yəqin ki, bu məsələyə də zamanında bir nöqtə qoyulacaqdı, yəni yekun rəyə gəlinəcəkdi.

***Bizim üçün ən vacibi, ən önəmlisi isə təbii ki, Azərbaycan tikinti-arxetektura nümunəsi olan Azərbaycan tarixinin bir zaman kəsiyini özündə əks etdirən və bununla da həm sənət nümunəsi, həm tarixi abidə kimi xalqımız üçün son dərəcə önəmli olan Əsgəran qalasının indiki durumudu.***

Yəni onun düşmən caynağında olmasıdı. Bunu ona görə xüsusi vurğulayıram ki, ermənilər bu gün nəzarət altına müvəqqəti də olsa götürdükləri yerlərdə Azərbaycan tarixinin az qala kökünü qazımaqla tariximizi məhv edirlər.

Əsgəran qalasının tarix baxımından önəmli olması danılmaz fakt olduğu kimi, bu sözün özünün etimologiyası da çox maraqlıdı. Yəni ermənilərin bütün iddialarına, yalançı və uydurma mənbələrinə baxmayaraq, sözün özü birmənalı şəkildə hansı millətə mənsub olduğunu ifadə edir.

Və hətta rus alimləri də öz əsərlərində bu qalanın adını "Əsgəran" kimi qeyd edirlər. Belə olduğu halda, mədəniyyət və tarixi arxeologi abidələrə qarşı soyqırım həyata keçirən ermənilərin həyasızlığını sadəcə olaraq elə erməni xisləti kimi dəyərləndirmək lazımdır.

***Ən azından ona görə ki, bu millət bir toplum olaraq həmişə başqasının dəyərlərinə əl uzatmış, həmişə başqasının dəyərlərini özününküləşdirməyə, öz adına çıxarmağa çalışmışdı.***

Ona görə də Dağlıq Qarabağ ərazisində, əslində isə Yuxarı Qarabağda yerləşən Əsgəran qalası tarixçi-araşdırmaçı alimimiz Qiyasəddin Qeybullayevin toponimlərlə bağlı fikirlərində öz əksini tapıb. Onun yazdığına görə, "qalanın adı qoşunların dayanacaq yeri olan ərazinin mənasını özündə ifadə edir.

Bu sözün birinci yozumudu. O ki, qaldı ikinci yozuma, Əsgəranı rus variantında, yəni rus dilində "Askeran" kimi qeyd olunması normal bir haldır və əsgər sözünün mənşəyi də Azərbaycan toponimləri ilə bağlıdır.

Bir az da ətraflı şərh etsək, onda məlum olar ki, barəsində müzakirə apardığımız, fikir bölüşdüyümüz Əsgəran sözü XVIII əsrdə Qarabağ xanı Pənahəli xanın tikdirdiyi Əsgəran qalasının adı ilə bağlıdır və sözün bir toponimi olaraq əski mənası, "qədim", "köhnə" sözlərilə bağlıdır.

Bax, elə buradaca mənbədən götürdüyümüz bir fikirlə vurğulamaq istəyirik ki, "Əsgəran rayonu ərazisində Panah xan tərəfindən tikilmiş



"Əsgəran qalasının xarabalıqları vardı, qala yerin adı ilə Əsgəran adlanmışdı".

***Bu gün tarixi abidələrimizə diqqət yetirəndə onların paralellərini göz önünə gətirəndə və yaxud bununla bağlı elmi mənbələrə, kitablara üz tutanda onda görürük ki, bizim məhz həmin dövrə aid, yəni XVIII əsrə aid arxitektura nümunələrimiz, abidələrimiz inşa baxımından tikilmək üslubundan bir-birini müəyyən mənada tamamlayır.***

Onların tikintisində istifadə olunmuş təkcə materiallar yox, həm də üslub baxımından arxitektura elementləri və texnikası baxımından müəyyən oxşarlıqlar var.

Yeri gəlmişkən xatırladım ki, Əsgəran qalasının özü, yəni Xocalının, Şuşanının işğalına qədərki mövcud durumu bu gün də gözlərimin önündədi. Mən o qala divarlarının dibiylə addımlayarkən keçirdiyim qürur hissləri və həmin o qala divarlarının yanında dayanmış əlisilahlı rus əsgərlərinin heç bir məna ifadə etməyən siması bizim nələrə həsrət qaldığımızı sanki bir pıçıltıyla söyləyir.

**Böyük Məmməd Arazın qazıntı aparan arxeoloqa, tarixi öyrənən, tarixə baş vuran alimə üz tutub söylədiyi kimi, "hər daşın altında bir tarix yatır". Elə Əsgəran qalası da hətta əsirlikdə də o tarixi özündə yaşadır - bizim olan, Azərbaycanın olan tarixin anlarını.**

***ƏBÜLFƏT MƏDƏTOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

Belə-belə işlər

# Gözəllik dünyanı xilas edə biləcəkmi?



*Vahid MƏHƏRRƏMOV*

**Neçə vaxtdır koronovirus qırsaqqız olub yapışıb dünyanın yaxasından, buraxmaq istəmir. Deyəsən, Covid-19-un niyyəti çox çirkindir. Belə görünür ki, dünyanı dünyalıqdan çıxardana kimi yer üzündən uzaqlaşmaq fikri yoxdu. Niyə cəhənnəm olub çıxıb getmir dədəsinin xarabasına?**

Hamımız görürük ki, korono yer kürəsinə qədəm qoyandan dünyamız əvvəlki gözəllik və təravətini itirib. Elə bil bir az yazıqlaşıb. Dünyanın yaraşıqlı çağlarından heç bir əsər-əlamət qalmayıb. Hər şey rəngini və ahəngini dəyişib. Təəssüf ki, dəyişən yalnız dünyanın rəngi və ahəngi deyil. Korono dünya ilə bərabər insanları da yorub əldən salıb, həyatlarına ağrı-acılarla dolu narahatlıqlar qatıb. Bir şey də pisdi ki, insanların da dünyaya münasibəti dəyişib.

### *Korona yer üzünə ayaq açandan*

***həyatımızın gedişində, dünyanın gərdişində bir durğunluq, bir yorğunluq əmələ gəlib. Bu yorğunluq, bu durğunluq hər addımda ayaqlarımıza dolaşır, bizi sabahlara addımlamağa qoymur. Yekə bir dağ kimi, keçilməz bir sədd kimi qarşımızı kəsib irəli buraxmır. Amma taclı mələk bizə nə qədər xox gəlsə də, hədələsə də, aradabir dili dolaşıb kəkələsə də biz ruhdan düşmürük, yaşamaq və yaratmaq eşqimizin çırağını sönməyə qoymuruq. Onu arzu və istəklərimizlə qidalandırırıq.***

Hiss olunur ki, dünyanın özü də koronanın əlindən zinhara gələrək köhnə çağlar üçün darıxır. Ötənləri xatırladıqca bir az da qəm dəryasının qərq olur. Tezliklə o günlərə qayıtmaq, həmişəki qaynar həyatın qoynuna atılmaq istəyir.

Bunun üçün insanlarla qolqola girib, kürək-kürəyə verib fırlana-fırlana virusla mübarizə aparır, özünü də, insanları da xilas etməyə çalışır.

### *Bu günlərdə*

***özünü ağıllı-kamallı hesab edən adamların hamısı bir yerə toplaşıb dünyanı taclı mələk adlı bəladan xilas etməyin yollarını arayır. Bu məqsədlə hər kəs bildiyini və bacardığını ortalığa qoyur. Hamı bir nəfər kimi əl-ələ tutub bütün insanların evi olan dünyanın xilasına çalışır. Bunun üçün yollar axtarır, cığırlar soraqlayır. Alimlər, həkimlər yoluxmadan internet vasitəsilə təcrübələrini bir-birilərinə öyrədirlər, fikirlərini böl-bölüş edib paylaşırlar. Sanki dünya camaatını bulaşdığı virusdan yuyub təmizləmək üçün bulaqlaşırlar, göllləşirlər, çaylaşırlar.***

Ermənilər kimi çox həyasız olan korona da bu mübarizənin qarşısında əllərini üst-üstə qoyub boş dayanmır. Məğlub olmamaq üçün fəndlər işlədir, səngərlər qazır, yeni-yeni mövqelər tutur. Özünə yeni-yeni tərəfdarlar axtarır, daha müasir vasitələrlə silahlanır. Mutasiyadı, yoxsa nə tasiyadı, ondan oluna-oluna dondan-dona girir, şəkildən-şəklə düşür, başdan xarab olan adamlar kimi cildini tez-tez dəyişir. Buna görə də onunla mübarizə aparmaq işi mürəkkəbləşir, çətinləşir. Amma nə qədər çətinləşsə də biz sonacan mübarizə aparıb ona qalib gələcəyik. Nəyin bahasına olursa olsun, bu döyüşdən qalib ayrılacağıq.

Əgər belə çətin günlərində dünyadan üz döndərsək, mübarizə aparmasaq bəs onda onu kim və ya nə xilas edəcək?

Hamının başında sürətlə dolaşan bu və ya yaxud başqa sualların cavabı indi təkcə məni yox, bütün dünyasevərləri, həyatsevərləri və torpaqsevərləri bərk-bərk düşündürür. Gəlin, papağımızı qabağımıza qoyub əməlli-başlı fikirləşək. Fikirləşək görək dünyamızı virusun əlindən necə xilas edək, hansı üsul və metodlardan yararlanaq? Bunun üçün hansı dəyərli və gərəkli addımları ataq? İndiyə qədər işlədilməmiş hansı fəndi fırladıb koronanı asanlıqla tora salaq, sonra da onu gora yola salaq? Neujeli bu boyda dünyada, bu yekəlikdə işi öhdəsinə götürə bilən bir nəfər yoxdu? Yoxsa belə naxoş vaxtında heç kim ona yaxın durmaq istəmir, hər şeyi buraxır taleyin ümidinə? Xəstə olmayanda çoxları dünyaya sahib durmaq, onu bölüb-bölüşdürmək, hissələrə parçalamaq istəyirdi.

### *Bundan ötrü qanlar tökürdü,*

***canlar alırdı. Amma dünya bir az azarlayıb üç-dörd dəfə öskürən və qızdırması qalxan kimi hamı ona arxa çevirmək fikrinə düşür. Bəlkə bəziləri "Dünya mənim, dünya sənin, dünya heç kimin" misrasına aldanır?! Vallah, nəyə desəniz and içərəm ki, dünya hamımızındı. Dünyadan bizə çatacaq pay eynidi. Düzdür, bəzi görməmişlər imkan olan kimi bacardıqca onun daha çox hissələrini qamarlamağa çalışırlar. Amma bir az keçər-keçməz dünya həmin artıq payı onun özü ilə bərabər "hop-balara" aparır. Gəlin əl-ələ verib azarlı vaxtı dünyamızı qoruyaq, düşdüyü bu ağır xəstəlikdən - koronadan onu xilas edək! Sonra ya baş-başa, ya da kürək-kürəyə verib arın-arxayın onun üstündə yaşayaq.***

Dahi rus yazıçısı Dostayevski "İdiot" əsərində yazırdı ki, dünyanı gözəllik xilas edəcək. Bəlkə də çoxları buna arxayın olub çəkilib durub bir qıraqda. Gözləyirlər ki, görsünlər gözəllik dünyanı necə və nə vaxt xilas eliyəcək. Oxuyanlar bilir ki, həmin əsərdə bu fikir obrazın dilindən hökm kimi səsləndirilmir. Elə belə, sözgəlişi deyilir. Bu kəlmələri eşidəndə həmsöhbəti də qayıdıb belə cavab verir: "Bu nə danışır əə, gözəllik dünyanı xilas edəcək?" Yəni heç obrazın özü də dediklərinə tam inanmır, şübhə ilə yanaşır. Əgər sözün yiyəsi özü öz dediklərinə əmin deyilsə, tədəddüt edirsə, əcəba, biz niyə onun söylədiklərinə inanmalıyıq? Amma bu fikrə etirazımız da yoxdu. Necə deyərlər, bu meydan, bu da şeytan. Qoy gözəllik buyurub dünyamızı düşdüyü bu ağır bəladan xilas eləsin. Bəs görəsən gözəllik bu ağır işin öhdəsindən təkbaşına gələ biləcəkmi?

**Bu suala cavab axtara-axtara görürük ki, Covid-19 dünyanın gözəlliklərini məhv etməkdədir. Minləri apardı, Azərbaycanda yüzləri apardı, beş jurnalistin ömrünə qıydı. Bəs belə bir vəziyyətdə yazıq gözəllik dünyanı təkbaşına necə xilas edəcək? Mənə elə gəlir ki, dünyanı koronadan insanların bir-birilərinə xoş münasibətləri, dostluqları, qarşılıqlı anlaşmaları, səmimi yanaşmaları, bir-birilərinə sevgi və istəkləri, qardaşcasına mehribanlıqları, bir də gigiyenik tələblərə ciddi əməl etmələri qurtaracaq.**

# *Qonşuda korona geri qayıtdı: toy qadağan edildi*



**Gürcüstan Baş naziri yanında Koronavirusla Mübarizə İdarələri Koordinasiya Şurası ölkədə yoluxma sayının kəskin artması ilə əlaqədar toy, yubiley, anım və digər sosial tədbirlərin qadağan edilməsinə qərar verib. Bunu Gürcüstan hökumət administrasiyasının rəhbəri Natia Mezvrişvili brifinq zamanı deyib.**

Onun sözlərinə görə, Gürcüstan bir müddət öncəki həyat şəraitinə geri dönür. Müvafiq qərarın sentyabrın 10-dan etibarən qüvvəyə minəcəyi bildirilir.

# Yeni kitab: "Ancaq O"




**Tanınmış şair-publisist, Əməkdar jurnalist Əbülfət Mədətoğlunun yeni şeirlər kitabı dərc olunub. "Ancaq O" adlı kitab "Adiloğlu" nəşriyyatında nəşr olunub.**

Kitabın redaktoru Fəridə Rəhimlidir.

Kitabları Türkiyə, İran, Rusiyada işıq üzü görən müəllif üslubuna sadiq qalaraq nisgilini, həsrətini, sevgisini, duyğularını qələmə alıb. "Bir qadına" ünvanlanan silsilə "Ancaq O"da da davam edir.

**Emin Piri**



***Gülnar Ümid***

## *TALEYİMDƏN HARA QAÇIM?*

Taleyimdən hara qaçım,
Addım-addım aramasın
Mən düşərkən xoşbəxtliyin cığırına
Güdüb məni şikarı tək ovlamasın.

Taleyimdən hara qaçım?
Qaranlıqda bir ağacın
Altında gizlədim onu,
Yox… onda da ay işığı,
Işığıyla tapar onu

Taleyimdən hara qaçım?
Mən qaçdıqca bütün ruhum dilə gəlib
Günahkarsan deyə-deyə,
Vicdanımın yaxasından
Yapışaraq gülə gülə,
Gecikmisən deyir mənə.

Taleyimdən hara qaçım?
Bir yarpağın altında
Gizlənməyi bacaran həşərat tək
Olmağı da bacarmadım.
O gizlətdi taleyini ölənədək
Mən diriykən bacarmadım.

Taleyimdən hara qaçım?
Bəlkə yumub ovucumda
Bir oyunun daşı kimi
Gizlədim onu,
Yox, onda da bir imdada çatmaq üçün,
Ovucumu açıb itirəcəm yenə onu.

Taleyimdən hara qaçım?
Bəlkə bir az zəhər qatım
Bu taleyin şərbətinə,
Göz yumaraq düşünmədən
O dünyanın əzabını,
Qonaq edim bu dünyanın şəhvətinə.

Taleyimdən hara qaçım?
Doğruları gəzə-gəzə,
Düşdüm yalanın toruna
Vicdanımı əzə-əzə,
Oyuncaq oldum oyuna.
Taleyimdən hara qaçım?
Bəlkə burdan qaçacaqsan
Gizlənməyə, oğrun-oğrun yaşamağa
Gizli yer də tapacaqsan.

Amma taleyinin günahıyla
O dünyada əbədiyyən
Bir sən, bir o
Cavabınla qalacaqsan.

## *ÖMRÜN İLLƏRİ*

Ömrümü toxudu günlər,
Rənglərdən rənglərə keçib,
Nə yaman ötdü tez illər
İlmədən ilməyə keçib.

Yuxusuna haram qatdım,
Anam laylay çaldı yatdım,
Addım-addım ayaq atdım,
Bələkdən iməyə keçib.

Nə ömürdü yaşayıram,
Duz yükünü daşıyıram,
Yaraları qaşıyıram,
Sümükdən iliyə kecib.

Neylirəm qızıl teşdi mən,
İçinə qan qusarsan sən,
Cismin sanar cənnətdəsən,
Ruhun cəhənnəmə keçib.

Kasıbın ürəyi dolu,
Boş qalıbdır sağı,solu
Varlıların ürək yolu
Kasıbdan yeməyə keçib.

Vicdanıma sus, sus dedin,
Günahları qus,qus dedin,
Yalanlara kabus dedin,
Doğrular tələyə keçib.

Göstərib yolun sonunu,
Geyinib haqqın donunu,
Gülnar fələyin yolunu,
Döndərib qibləyə keçib.

# "Şalvarı rajokla geyinmisən?"

## Söz və kamança ustadının ölümündən 5 il keçir

**Habil Əliyevin adı gələndə insanların yadına bəzi lətifələr düşür. Bu gün bu yazımda həmin lətifələrin bir qismini sizə xatırladıb Xalq artistinin dərin, mənalı sözlər ilə insanların üzlərində necə gülüş yaratmaq, nəyəsə eyham vurmaq istədiyini çatdıracam.**

Bir gün Habil Əliyev televiziyada Niyaməddin Musayevlə rastlaşır. Belə ki, həmin vaxt Niyaməddin əyninə çox dar şalvar geyinibmiş. Habil bəy onu diqqətlə süzüb deyir:

**-Bayaqdan fikirləşirəm, bu şalvarı əyninə necə geydiyini tapa bilmirəm, deyəsən, rajokla geymisən?**

Habil Əliyev üçün sözün ünvanlandığı şəxslərin kimliyi maraqlı deyildi. Əgər o, zarafat etmək istəyirdisə, edirdi. Ona görə də, nəinki Niyaməddin Musayevlə, bir çox sənətçilərlə də belə zarafatlara yol verirdi. Onlardan biri də Ədalət Şükürov olub. Məclislərin birində Ədalət Şükürov gəlib Habil Əliyevə sevinərək deyir:

**-Habil müəllim, təbrik edin, mənə Əməkdar artist adını verdilər.**

Habil Əliyev də dəhşət içində soruşur:

**-Nəəə? Sən də aldın? Əşşi, onlar verirdi, verirdi, sənin abrına nə gəlmişdi ki, götürürdün?**

Ədalət Şükürovu təbrik etmək əvəzinə onu qınayan Xalq artisti o qədər sadə və səmimi insan olub ki, hətta sənəti ilə də qürrələnməyib. Peşəsini də gülüş obyektinə çevirib, kamança haqqında da məşhur bir lətifə formalaşdırıb. Belə ki, Tibb Universitetində Habil Əliyevlə tələbələrin görüşü keçirilirmiş. Orta cərgədə bir tələbə ayağa durub, amiranə görkəmli müstəntiq kimi soruşur:



**-Yoldaş Əliyev, axı necə oldu ki, kamança çaldınız? Necə oldu ki, kamança alətini seçdiniz? Cavab verə bilərsinizmi?**

Habil Əliyev isə bir müttəhim görkəmi alaraq büzüşüb məzlumlaşıb, fağır bir səslə deyir:

**-Vallah, necə deyim, uşaq olmuşam, qanmamışam, kamançanı seçmişəm.**

Kamançanı seçən, sevən,sevdirən, duzlu, məzəli sözü, sənəti ilə qəlblərdə taxt quran Habil müəllimin ölümündən 5 il keçir. Yaşasaydı, əminəm ki, o, digər sənətçiləri də rajokla şalvar geyinməkdə qınayacaq və çoxsunu Ədalət Şükürov kimi təbrik edəcəkdi. Ruhun şad olsun, ustad!

**Rövşən Tahir**

# *Tahir Gözəl:* "Molde"nin ədalətsizliyi bizi məyus edir"

**Çempionlar Liqasının III təsnifat mərhələsində "Qarabağ" Bakıda Norveç təmsilçisi "Molde"ni qəbul etməli olsa da, qarşı tərəf COVİD-19 pandemiyasını bəhanə gətirərək Azərbaycana gəlməkdən boyu qaçırır. "Molde"nin ölkəyə qayıtdığı zaman dövlətin müvafiq qurumları tərəfindən 10 gün karantində saxlama durumu səbəbindən ölkəmizə gəlməkdən çəkinməsi oyunun təyinatıyla bağlı yubanma yaradıb.**



Qol.az-ın xəbərinə görə, "Qarabağ"ın prezidenti Tahir Gözəl baş verən hadisəni klubun saytına dəyərləndirib.

O deyib: "Hazırda yaranmış vəziyyət həqiqətən çox üzücüdür. Norveç tərəfinin bu ədalətsizliyi bizi həqiqətən məyus edir. Bu məsələdə "Qarabağ" tərəfi sonuna qədər haqlı olsa da, UEFA Norveç tərəfinin haqsız inadkarlığı nəticəsində oyunun neytral meydançada keçirilməsinə yönəlib. Biz hər zaman ədalətli oyunun tərəfdarı olmuşuq. Əgər püşk bizi Norveçdə oynamağa göndərsəydi, məmnuniyyətlə ora gedərdik. Amma görünən odu ki, qarşı tərəf fərqli bəhanələrlə Azərbaycana gəlməkdən imtina edərək neytral meydanda oynamaq istəyir. Biz nə texniki məğlubiyyət, nə də texniki qələbə istəyirik. AFFA rəhbərliyi ilə müzakirələrimiz nəticəsində qarşılaşmanın üçüncü ölkədə keçirilməsi haqqında qərar verilsə, orada oynamağa razılıq verəcəyik. Buna səbəb bizim futbolu bir idman, bu oyunun masa arxasında deyil, yaşıl meydanda olan bir oyun kimi görməyimizdir. Mən komandama inanıram və bu qarşılaşmanın yaşıl meydanda qazanılmasını arzulayıram. Qərar nə olursa-olsun, komandamın yanındayam və sona qədər dəstəyimi əsirgəməyəcəm".

## *"Mən şorgöz qadınam" deyən aktrisa yenidən hamilədir: Uşağın atası gizlədilir...*



**Türkiyədə "Muhteşem yüzyıl" serialında "Hürrəm Sultan" obrazı ilə tanınan və sevilən Məryəm Üzərli həm də şəxsi həyatıylada maraq obyekti olub. O 1983-cü ildə Almaniyada doğulub. 2011-ci ildə adıgedən filmə çəkiləndən sonra populyarlaşıb. Əvvəlcə aktyor Ozan Güvənlə 2 aydır eşq yaşadığı bildirilirdi. Ancaq iddialara görə, həmin ərəfədə yaxın rəfiqəsi Tüba Ünsalın ad günü mərasimində iştirak edən aktrisa orada zəngin iş adamlarından birinin yaxın qohumu ilə maraqlanıb. Məryəm Üzərli mərasimdə bol-bol içib və əylənib. O, dostlarına "Mən şorgöz qadınam. Almaniyada 3 nəfərlə görüşürəm",- deyib.Qeyd edək ki, Məryəm Üzərlinin eşq macərası yaşadığı iş adamı Can Atəşdən qeyri-qanuni doğulmuş Lara adlı qızı var.**

Sevgililərini durmadan dəyişən aktrisa eyni zamanda uzun illərdir xəyalını qurduğu yeni biznesini Almaniyanın Berlin şəhərində qurur. Məryəm restoranından video paylaşaraq bu barədə məlumat verib:"Çox xoşbəxtəm, iki mağazam da açıldıqdan sonra bu işi başqa şəhərlərdə də etmək istəyirəm. Burada şirniyyatlar, alyatlar, dondurmalar, Kolumbiya qəhvəsi və bir çox qidalar satılacaq".

Görüntülərdən xoşbəxt olduğu hiss ediən cazibədar aktrisa bir ara misirli sevgilisinin ailəsi ilə tanış oldu. Məryəmin həmkarı aktyor Bassel Alzaro ona evlilik təklifi etdi. Hətta o vaxt 34 yaşı olan aktrisa sevgilisinin təklifinə çox sevindi. O, sevincini sosial şəbəkədən izləyiciləri ilə bölüşdü. Aktrisanın barmağındakı brilyant üzük xüsusilə diqqət çəkdi Bütün bunlara baxmayaraq evlilik baş tutmadı

Son günlər alman əsilli türk aktrisadan maraqlı xəbərlər yayılmaqdadır.

Adalet.az xəbər verir ki, ikinci dəfə ana olmağa hazırlaşan aktrisa Məryəm Üzərli Almaniyanın paytaxtı Berlində ikinci kafesini açıb. Beş aylıq hamilə olan məşhur "İnstagram" hesabından paylaşım edib.

Ekranlardan uzaq qalan 37 yaşlı aktrisa bir müddətdir ki, Berlində yaşayır.

## *Adı "eşcinsel" olaraq hallanan, heç vaxt evlənməyən tanınmış aktyor...*



**Bir neçə il əvvəl bizi ekranlara kilidləmiş "Yarpaq tökümü" serialının Əli Rza Təkin ifaçısı Xəlil Ərgünün doğum günüdür. "Yeşil cam" ın tanınmış siması 8 sentyabr 1946-cı ildə Bursa vilayətinin İznik rayonunun Müşkül kəndində anadan olub. İbtidai məktəbi və orta məktəbi İznikdə oxuyub. "Pertevniyal" liseyindən məzun olduqdan sonra Ankara Universitetinin Siyasi elmlər fakültəsində təhsil alıb. Tənəkə rolu ilə teatr aktyoru karyerasına başlayıb. O, Vasif Öngürən, Mustafa Alabora və Ərdoğan Akdumanla birlikdə Ankara Birlik Səhnəsini yaradıb. Aktyor fəaliyyəti dövründə 50-dən çox mükafat və ödüllərlə təltif olunub.**

Adalet.az xəbər verir ki, tanınmış aktyor heç vaxt evlənmədi. Adı aşk macəralarında hallanmadı. Övladı da yoxdu. Bir müddət onun haqqında "eşcinseldir" (homoseksual) sözləri böyük gündəmə səbəb olmuşdu. Hətta jurnalistlər aktyorun bu haqda israrla açıqlama verməməsini ittihamın gerçək olduğunu ortaya qoyurdu. Qeyd edək ki, Xəlil Ərgün haqqında çıxan dedi-qodularla bağlı nə polisə, nə də, məhkəmələrə müraciət etmədi.

Bu gün tanınmış aktyorun 74 yaşı tamam olur.

**Əntiqə Rəşid**

# "Qalmaqala meyilli insan deyiləm"

## Ruslan Zərbəliyev: "Paxıl insanlar hər zaman var"

***"Heç bir zaman tardan küsməmişəm. Niyə küsüm ki? Onu sevmişəm, seçmişəm və o da məni pis vəziyyətdə qoymayıb. Tar çox hissiyyatlı alətdir, ona bir az diqqət göstərməyəndə səndən küsür. Bir-iki gün onu ifa etməyəndə hiss edirsən ki, səndən küsüb. Tar sevir ki, ona diqqət göstərilsin". "Ədalət" qəzetinin qonağı tarzən Ruslan Zərbəliyevdir.***

**-Ruslan, zəhmət olmasa, özünüzü təqdim edin...**

-İsmayıllıda anadan olub orada da musiqi məktəbinə getmişəm. Daha sonra Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil almışam. 2010-cu ildən 2014-cü ilədək muğam sənəti kafedrasında konsertmeyster işləmişəm. 2014-2016-cı illərdə magistr təhsili almışam. Hazırda xalq çalğı alətləri kafedrasında həm muğam, həm də ixtisas-not müəllimi kimi çalışıram. Universiteti oxuduğum illərdən peşəkar səhnəyə çıxmışam, xanəndələrlə çalışmışam. Arzusunda olduğum xanəndələrin çoxsunu müşayiət etmişəm. Ölkəmizi dünyada təmsil edən muqiçilərdənəm. Almaniya, Hollandiya, Slovakiya, Macarıstan, Ruminiya, Bolqarıstan, Moldova, Qazaxıstan, Qırğızıstan, Rusiya, Türkiyə kimi ölkələrdə qastrol səfərlərində olmuşam, çıxışlar etmişəm.

**-Necə oldu ki, ifaçılığa meyil göstərdiniz?**

-İfaçılığa meyil deyəndə, əgər sənəti istəyirsənsə, onu seçirsən. Düzdür, elə sənətçilər də var ki, təhsil almasına baxmayaraq ifaçılıqla məşğul olmur, başqa sahələrdə özünü sınayır, məndə isə belə olmayıb. Həmişə sənəti sevmişəm, böyük ustadları dinləmişəm. Məqsəd olandan sonra hədəflərini müəyyən etməyə başlayırsan və əziyyət çəkirsən.

**-Ailədə sizdən başqa musiqiçi var?**

-Bəli, var.

**-Bir çox musiqiçinin həyatında sevdiyi bir əsər, nəğmə olur. Sizdə bu hansıdır?**

-Sevdiyim musiqilər kifayət qədərdir. Amma ruhuma yaxın olan daha çox muğamlardır. Düzdür, bütün janrları dinləyirəm, amma ən çox muğamları sevirəm. Azərbaycan bəstəkarlarının elə əsərləri var ki, onları dinləməkdən zövq alıram. Məsələn, Cahangir Cahangirovun "Ana" əsəri mənim üçün zirvədədir. Elə vaxt olur ki, bu əsərə bütün günü qulaq asıram.

**-Çox əziyyət çəkmisiniz?**

-Sənətdə əziyyətlərim olub. Bu sənət elə bir sənətdir ki, əziyyətsiz mümkün deyil. Əziyyət çəkmədən ortaya hansısa bir iş qoya bilmərsən, yüksələ bilmərsən, sənətin inkişaf edə bilməz. Tar sənəti zəhmət tələb edən bir sənətdir. İfaçı hər gün məşq etməlidir. Fikrimcə, əziyyətsiz heç bir şey yoxdur. Əziyyət çəkib bəhrəsini mütləq ki, görürsən. Sənəti ilk növbədə sevmək lazımdır, daha sonra onun yolunda çətinliklərə qatlaşmaq.



**-Digər sahələrdən fərqli olaraq incəsənətdə qalmaqallara daha çox rast gəlinir. Qalmaqallarla tez-tez üzləşirsiniz?**

-Muğama yaxın olduğumuz üçün qalmaqal ruhumuzda yoxdur. Sənətlə məşğul olmayanda qalmaqal fikirləşirsən. Bizdə elə bir vaxt yoxdur ki, qalmaqal edək. Ona ayıracağımız vaxtı sənətə sərf edirik. O qədər öyrənməli şeylər var ki, heç qalmaqala vaxt qalmır. Təbiətcə də qalmaqala meyilli insan deyiləm.

**-İnsan uğurlar qazandıqca onun paxıllığını çəkənlər də olur. Bu gün paxıllığınızı çəkən çox adam var?**

-Paxıl insanlar hər zaman var. Olur ki, nələrəsə nail olursan, iş görürsən, səni qəbul etmirlər. Şükür Allaha ki, ətrafımda elə insanlar çox yoxdur. Yanımda olan insanlar xaraktercə mənə yaxın olduqları üçün paxıl deyillər. Bəlkə də, mən hiss etmirəm. Hərənin bir missiyası olduğu kimi, paxıl insanların da missiyası var.

**-Bu sənəti yaxşı mənimsəməkdə kimə borclusunuz?**

-Tar sənətini mənimsəməkdə bütün ustadlara borcluyam. İlk növbədə isə İsmayıllıda müəllimim olmuş Elşən Süleymanova borcluyam. Başlanğıcı ondan öyrənmişəm. Mədəniyyət və İncəsənət Universitetində isə müəllimim böyük sənətkar Vamiq Məmmədəliyev, ixtisas-not müəllimim isə Gülağa Zeynalov olub. Ustadların hər birindən nələrsə mənimsəmişəm. Şərt o deyil ki, kimsə üzbəüz müəllimin olsun. Onları dinləmək belə bəs edir. Tar sənəti elə bir sənətdir ki, öyrənməklə tükənmir. Gərək onu daim öyrənəsən.

**-Hazırda sizə desələr ki, bir parça mahnı ilə tarda özünüzü ifadə edin, hansı nəğməni ifa edərsiniz?**

-Düzdür, hər bir ifaçının sevdiyi musiqilər var, amma hər an da onu ifa etmək olmur. Ana, vaxta, əhval-ruhiyyəyə görə dəyişir. İndiki anda gərək alət sinədə olsun ki, hansısa bir mahnını ifa edim. Hər anın öz musiqisi var.

**-Heç olubmu ki, tardan küsəsiniz?**

-Heç bir zaman tardan küsməmişəm. Niyə küsüm ki? Onu sevmişəm, seçmişəm və o da məni pis vəziyyətdə qoymayıb. Tar çox hissiyyatlı alətdir, ona bir az diqqət göstərməyəndə səndən küsür. Bir-iki gün onu ifa etməyəndə hiss edirsən ki, səndən küsüb. Tar sevir ki, ona diqqət göstərilsin.

**-Çox sağ olun ki, vaxtınızı ayırıb müsahibə verdiniz. Dəvətimi qəbul etdiyiniz üçün təşəkkür edirəm.**

-Siz sağ olun.

**Rövşən Tahir**

# Sevilən rəfiqələr 41 il sonra: "Moskva göz yaşlarına inanmır"

**Orta və yaşlı nəslin sevərək izlədiyi Sovet kinosunun inciləri sırasında yer alan "Moskva göz yaşlarına inanmır" filmi baxanların yaddaşından heç vaxt silinmədiyinə əminik. Hadisələr Moskvada əllinci illərdə baş verir. Bir-birindən yaraşıqlı üç əyalət qızı Moskvaya gəlir. Onlar da çoxları kimi meqapolisdə sevgi, yüksək qazanc və səadət axtarışındadır. Rəfiqələrin fərqli xasiyyətləri olduğu kimi taleləri də fərqlidir. Antonina ərə gedir, uşaq böyüdür, ərini sevir.**



Lyudmila Moskvaya bir lotereya kimi baxır və paytaxtda bəxtini sınamaq istəyir.

Katerina isə dəlicəsinə aşiq olsa da, könlünün oğrusu onu atıb gedir. Ancaq o təslim olmur, qızını təkbaşına ayağa qaldırır və özünə möhtəşəm karyera qurur. Qırx yaşına çatanda fələk onu gözəl bir insan və əsl məhəbbətlə üzləşdirir...

Sonrası? Sonrasını isə baxanlar bilir, baxmayanlara isə tövsiyyə edirik.

Sentyabr ayı bu filmin ekranlara çıxışından, yəni ilk izlənməsindən 41 keçdiyini xatırlatmaq istədik.

Adalet.az xəbər verir ki, 1979-cu ildə rejissior Vladimir Menşovun çəkdiyi 148 dəqiqəlik bu filmi melodram janrında olmasına baxmayaraq, sovet dönəmində filmə 90 milyon tamaşaçı tərəfindən baxıldığı məlum olmuşdu.

Artıq efirə çıxdığı gündən 41 il keçsə də əfsanəyə çevrilmiş bu film öz aktuallığını itirmir. Dillər əzbəri olan "Aleksandra" mahnısı isə bu filmi milyonlara sevdirməyi bacardı. Tamaşaçı əyalətdən Moskvaya oxumağa gələn 3 rəfiqə ilə o qədər doğmalaşır ki, onlarla birgə ağlayıb, birgə sevinir.

Filmdə iştirak edən aktyorların bir qisminin adını xatırladırıq

Vera Alyontova (O həm də filmin rejissoru Vladimir Menşovun həyat yoldaşıdır), Aleksey Batalov, İrina Muravyova, Yuriy Vasilyev, Raisa Rizanova, Boris Smorçkov, Aleksandr Fatyuşin, Nataliya Vavilova və başqaları...

**Film "Oskar" da daxil olmaqla onlarla mükatafata layiq görülüb. Bu gün baş rol ifaçılarının bəziləri həyatda yoxdur, amma hər dəfə film efirə gedəndə o aktyorlar yenidən canlanır və gənclik illərinə geri dönür.**

**Əntiqə**

# Kamili "əsəbləşməyinə" peşman etdilər: "Boyunuzu yerə soxum"



**Fitnes məşqçisi Kamil Zeynallı millimizin futbolçularından üzr istəyib.**

Adalet.az xəbər verir ki, o, "Instagram"da millimizin futbolçularını UEFA Millətlər Liqasının ilk oyununda Bakıda Lüksemburqa 1:2 hesabı ilə uduzmalarına görə təhqir etmişdi. "Boyunuzu yerə soxum" deyən Kamil Zeynallı bu dəfə onlardan bu ifadəyə görə üzr istəyib. Kamil bunu əsəbi olması və daha sonra bu sözünə görə peşmanlıq keçirməsi ilə əlaqələndirib. Kamil Zeynallı onu da qeyd edib ki, buna görə, heç kim ona təzyiq etməyib. O, peşmançılığını AFFA-da və millidə dostlarının olması ilə əsaslandırıb.

**Ə.Rəşid**

# *AFFA İntizam Komitəsinin sədri istefa verdi*



**AFFA-nın İntizam Komitəsinin sədri Tofiq Fətullayev öz istəyi vəzifəsindən ayrılıb.**

**Qol.az xəbər verir ki, bu vəzifə İntizam Komitəsinin üzvü olan Erkin Hüseynova həvalə edilib. İcraiyyə Komitəsinin növbəti iclasında İntizam Komitəsinin tərkibi barədə müvafiq qərarın qəbul olunması nəzərdə tutulub.**

## Elanlar

Mirzəyev Rəcəb Qiyas oğluna məxsus Abşeron rayon, Masazır qəsəbəsində 2 sot torpaq sahəsinin dövlət reyestr (308013095534) xidmətindən Çıxarış itdiyi üçün etibarsız sayılır.

***

İbrahimova Firuzə Hüseynqulu qızının adına verilmiş Bakı şəhər, Nizami rayonu, Naxçıvanski küçəsi ev 57, mənzil 29 ünvanın Çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

***

Dövlət Miqrasiya Xidməti tərəfindən Mehtizadə Rauf Vidadi oğluna verilmiş DMX 740 seriya nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

***

Məmmədov Abbasqulu Məhəmməd oğlunun adına verilmiş Abşeron rayon, Masazır kəndi, Yeni məhəllə, ev 35 ünvanında yerləşən fərdi yaşayış evinin Çıxarışı (seriya 30801302848010301, 308013047471) itdiyi üçün etibarsız sayılır.

***

Astara rayonu Giləkəran kənd sakini Ağayeva Seyidbəyim Kitab qızına 2 iyul 1999-cu il 18 saylı qərarla verilmiş torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-494 kod 80109048) itdiyi üçün etibarsız sayılsın.

***

Astara rayonu Ərçivan kənd sakini Əliyev İslam Tağı oğluna 2 iyul 1999-cu il tarixli 16 saylı qərara əsasən verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə (JN-745 A kod 80100018) itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Aşağı Nüvədi qəsəbə sakini Əliyev Fərhad Cəfər oğluna 21 fevral 1998-ci il tarixli 3 saylı qərara əsasən torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı (JN-388 kod 80204016) itdiyi üçün etibarsız sayılsın.

***

Lənkəran rayonu Liman Şəhər sakini Qasımov Rəfiqə İslam qızına 16 İyun 1998-ci il tarixli 11 saylı qərara əsasən torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə (JN-669A kod 80202004) itdiyi üçün etibarsız sayılsın.

***

Samux rayon Çobanabdallı kənd sakini Hüseynov Azər Oqtay oğlunun adına Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilmiş 507013004623 saylı çıxarış itdiyi üçün etibarsız sayılır.

***

Samux rayon Alıuşağı kənd sakini İskəndərova Nəzirə Məmmədəli qızının adına verilmiş JN-266 kod: 50706028 saylı torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır: 09.09.2020